№ 368
Dekabr 2017

KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# Türk Dünyası Bilgi Şöleni
















# İÇİNDƏKİLƏR


**Avrasiya Bilik Mərkəzi ilk dəfə çoxmərhələli akademik kurs təşkil etdi .... 4**

**Universitet xəbərləri .............................................. 6**

**Xəzər Universitetinin tələbəsi növbəti dəfə dünya çempionu oldu .......... 7**

**"Gələcəyini qur!" gəncliyə dəstək layihəsi Xəzər Universitetində .......... 8**

**"Xəzər Universitetində I Çin həftəsi" keçirildi .......................... 10**

**Görkəmli bəstəkar Sərdar Fərəcovun müəllif konserti ....................... 18**

**"Elmi yazı, nəşr və tədqiqat etikası" mövzusunda seminar-konfrans ....... 22**

**Professor Hamlet İsaxanlıya və xalçaçı rəssam Afaq Kərimovaya Kazım Qarabəkir Vəqfinin ödülləri təqdim olundu ............................ 24**

**Xəzər Universitetində "Türk Dünyası Bilgi Şöleni" keçirildi ............. 28**

**Azərbaycan ilə Özbəkistan arasında ədəbi-mədəni əməkdaşlığa dair memorandum imzalanıb ........................................... 38**

***Л. М. Гамидова.* Хазар в лицах ......................................... 40**

**"Qorxulu yuxular görəcəyim günü bilirəm..." (şair Alik Əlioğlu ilə müsahibə) ............................................................ 46**

**"Xəzər"in əməkdaşlarının məqalələri çap olunub ........................... 48**

**3 dekabr- Beynəlxalq Əlillər Günü ilə əlaqədar tədbir ..................... 50**

***Eldar Şahgəldiyev.* Fəlsəfi və psixoloji problemlər: yaradıcılıq və qabiliyyətlər ............................................................ 62**

**Qadınlara qarşı zorakılığa son! ........................................... 66**

***Nəcib Məhfuz.* Uşaqların cənnəti ......................................... 71**



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ
1991
BAKI

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre





# AVRASİYA BİLİK MƏRKƏZİ İLK DƏFƏ ÇOXMƏRHƏLƏLİ AKADEMİK KURS TƏŞKİL ETDİ





Xəzər Universitetində yerləşən Avrasiya Bilik Mərkəzi noyabrın 27-dən dekabrın 7-dək fəaliyyətində ilk dəfə olaraq pilot qaydada "Təbii resursla zəngin ölkələrdə gəlirlərin idarə edilməsi" mövzusunda çoxmərhələli kurs təşkil etdi. Kursa 6 ölkədən (Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ukrayna, Monqolustan və Azərbaycan) 22 dinləyici cəlb olunmuşdu. Dinləyicilər əsasən dövlət qurumları, parlament, beynəlxalq maliyyə qurumları, tədqiqat institutları və vətəndaş cəmiyyətini təmsil edirdilər.

Onlar on gün ərzində resursla zəngin ölkələrdə gəlirlərin optimal idarə edilməsini öyrəndilər, onların praktikada tətbiqi bacarıqlarına yiyələndilər.

Məruzəçilər Xəzər Universitetinin, eləcə də digər universitetlərin bu sahədə tanınmış mütəxəssisləri idi.

Tədbirin sonuncu günü iştirakçılar növbəti mərhələdə hazırlayacaqları siyasət sənədləri ilə bağlı müvafiq təlimat aldılar.

Sonda Xəzər Universitetinin prorektoru professor Məhəmməd Nuriyev və İsveçrə hökumətinin SECO təşkilatının regional rəhbərinin müavini Simone Haeberli iştirakçılara sertifikat təqdim etdilər.

İştirakçılar kursun faydalı olmasını qeyd edərək, Xəzər Universitetinə yaratdığı şərait üçün təşəkkürlərini bildirdilər.









# EURASIA KNOWLEDGE CENTRE ORGANIZED THE FIRST MULTISTAGE ACADEMIC COURSE

From November 27, to December 7, the Eurasia Knowledge Centre at Khazar University launched, for the first time, a multi-disciplinary course on "Revenue management in natural resource-rich countries" in pilot mode. 22 listeners from 6 countries (Kazakhstan, Kyrgyzstan, Tajikistan, Ukraine, Mongolia and Azerbaijan) were enrolled in the course. Listeners mainly represented government agencies, parliament, international financial institutions, academia, research institutes, and civil society.

For ten days listeners learnt the optimal management of revenue in resource-rich countries and acquired practical skills through practice.

Speakers were well-known experts in this field from Khazar and other universities.

On the last day of the event, the 22 participants from 6 countries received relevant guidance on policy documents to be prepared at the next stage.

At the end of the event, Prof. Mahammad Nuriyev, Vice-rector of Khazar University, and Simone Haeberli, Deputy Regional Director of the Swiss Cooperation Office, presented certificates to the participants.

The participants noted that the course was very useful and thanked Khazar University for the conditions created.





# FORUM THEATRE ORGANIZED BY "THE CHAIN" TEAM OF KHAZAR UNIVERSITY

On December 1, "The Chain" Team of Khazar University started implementing the final component of their campaign within the project "P2P: Facebook Global Digital Challenge". The team organized Forum Theatre workshops for two days at Build Your Future office to prepare the selected participants for the final theatre performance.

During workshops, the participants learned about the theatre type developed by Augusto Boal as part of his "Theatre of the Oppressed", practised some techniques to help them improve their acting skills, and were familiarized with hate speech and extremism and ways to fight them.

On December 3, the team carried out the final theatre performance at Caspian Platform to showcase what participants gained from two-days workshops. In this type of theatre, the actors leave the scene after performing and the audience becomes part of their acting. The spectators analyze what they have seen and once the actors are back on the stage, the audience can make additions, changes to the script and transform it completely.

During the final event, "The Chain Dance" was also performed before the audience. The choreography has been created for the project by one of the local dance centers. The dance illustrated the fight of dark and light and called everyone to change people around us and chain together for a better world.

Participation of Khazar University in "Peer to Peer: Facebook Global Digital Challenge" is coordinated by the International Affairs Office.

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ NÖVBƏTİ DƏFƏ DÜNYA ÇEMPİONU OLDU

# KHAZAR UNIVERSITY STUDENT BECOMES WORLD CHAMPION AGAIN




Noyabrın 28-dən dekabrın 1-dək Ukraynanın paytaxtı Kiyev şəhərində şərq əlbəyaxa döyüş növlərindən olan uşu-sanda üzrə dünya çempionatı keçirildi. Çempionatda 80 kq çəki dərəcəsində ölkəmizi Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsində tərcümə ixtisası üzrə təhsil alan 4-cü kurs tələbəsi Firudin Həsənov təmsil edirdi. Bütün rəqiblərinə qalib gələn Firudin Həsənov 1-ci yeri tutaraq, növbəti dəfə dünya çempionu adına layiq görüldü və qızıl medalla mükafatlandırıldı.

Qeyd edək ki, Firudin Həsənov bundan əvvəl də Asiya, Avropa və dünya miqyaslı bir sıra yarışların qalibi olmuşdur.

From November 28 to December 1, in Kiev, the capital of Ukraine, World Championship in Wushu Sanda, one of the Eastern hand-to-hand fights, was held. At 8o kg weight class, Firudin Hasanov, senior student of Humanities and Social Sciences Department, at Khazar University, represented the country at the Championship. Getting victory over all his fellow competitors, Firudin Hasanov took the 1st place and was named the World Champion again. He was awarded a gold medal.

It is worth mentioning that Firudin Hasanov had been the winner of several Asian, European and worldwide competitions before that.

# "XƏZƏR"İN MƏZUNU AGF - NİN BAŞ KATİBİ SEÇİLİB

Azərbaycan Gimnastika Federasiyası (AGF) İcra Komitəsinin dekabrın 10-da keçirilmiş iclasında Nurlana Məmmədzadə AGF-nin baş katibi seçilmişdir. N. Məmmədzadə 2007-2009-cu illərdə federasiyanın baş katibinin köməkçisi, 2009-cu ildən müavini vəzifəsində çalışmışdır.



N.Məmmədzadə 1979-cu ildə Bakıda anadan olub. 1996-2000-ci illərdə "Təfəkkür" Universitetinin ingilis dili ixtisası üzrə filologiya fakültəsində təhsil alıb, 2003-cü ildə isə həmin ixtisas üzrə Xəzər Universitetinin magistraturasını bitirib.

Ölkə mediasında bu barədə xəbərlər yerləşdirilib:

*https://milletinsesi.info/index.php?view=article&id=36208&dil=az*

*http://www.xezerxeber.az/idman/186069.html*

*http://qlobal.az/mehriban-eliyevanin-rehberlik-etdiyi-qurumda-kadr-teyinati/*

*http://www.dosye.org/ust-khaebaer-lenti/34576-mehriban-əliyevanın-rəhbərlik-etdiyi-qurumda-kadr-təyinatı.html* və s.






# "GƏLƏCƏYİNİ QUR!" GƏNCLİYƏ DƏSTƏK LAYİHƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ

# BUILD YOUR FUTURE PROJECT PARTICIPANTS AT KHAZAR UNIVERSITY

Dekabrın 3-də Xəzər Universitetində "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsinin "Məsuliyyət" mövzusunda tədbiri keçirildi.

İştirakçıları salamlayaraq, tədbiri açan Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Turan Cəfərova layihə haqqında ümumi məlumat verdi. Layihənin könüllüsü Rauf Cahangirov təhlükəsizlik tədbirləri haqqında iştirakçıları məlumatlandırdı. Layihənin rəhbəri Bəhruz Hidayətzadə layihənin elm, ədalət, sevgi, məsuliyyət kimi dəyərləri haqqında çıxış etdi. İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı universitet haqqında ətraflı məlumat verdi. Xəzər Universitetində təhsil alan, "Gələcəyini Qur!" layihəsinin məzunları Azər Əliyev, Günel Abuzərli, Ziya Məmmədov və Günel Ələsgərli öz təcrübələrindən söz açaraq, ali məktəblərə qəbul imtahanına hazırlıqlar zamanı məsuliyyətin vacibliyindən, həmçinin, sistemli çalışmaq və layihənin onlara vermiş olduğu imkanlardan daha səmərəli istifadə etməkdən bəhs etdilər.

Çay fasiləsindən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Məsuliyyət" mövzusunda çıxış etdi. Professor, həmçinin, Xəzər Universitetinin yaranma tarixindən də söz açdı.

On December 3, Build Your Future Youth Support Project held an event dedicated to one of the six project values on Neftchiler campus of Khazar University.

Turan Jafarova, Director of International Affairs Office opened the event by welcoming all participants and guests, providing information about the project and reviewing the event's agenda.

The event started with a session on Health, Safety, and Environment which was delivered by Rauf Jahangirov, project volunteer. Bahruz Hidayatzade, project manager, delivered a presentation about the six values of the project and paid specific attention to responsibility. Isakhan Isakhanli, Vice-rector for Administration and Student Affairs, gave a presentation about Khazar University, programs it offers, university's resources, scholarship opportunities, and other important information. Alumni of the Build Your Future Project who are currently studying at Khazar University presented short speeches about the student life at Khazar University, their participation in the project, and shared personal recommendations on how to make the most out of participation in the project and how to prepare to the university admission exam effectively.

After a short coffee break, the event continued with a speech about responsibility by the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees Professor Hamlet Isakhanli. Professor Isakhanli also spoke about the history of the establishment of Khazar University.





Çıxışdan sonra layihənin rəhbəri Bəhruz Hidayətzadə professor Hamlet İsaxanlıya layihəyə göstərdiyi dəstək və əməkdaşlığa görə diplom təqdim etdi. Qeyd etmək lazımdır ki, cari tədris ilində Xəzər Universiteti layihənin iştirakçıları tərəfindən ən çox seçilən universitet oldu. Ali məktəblərə qəbul olmuş 125 nəfərdən 25-i hazırda Xəzər Universitetində təhsil alır.

Tədbirin davamında Xəzər Universitetinin Təhsil fakültəsinin dekanı Dr. Elza Səmədova məsuliyyətin növləri haqqında qısametrajlı filmlər nümayiş etdirərək, iştirakçılara bu barədə ətraflı məlumat verdi.

Tədbirdə spiker qismində, həmçinin, Cavid Şahmalıyev (sosial işçi, "Uğur Akademiyası"nın həmtəsisçisi), Coşqun Kərimov (təlimçi və üç kitabın ("Kvan", "Ubuntu" və "Alamo13") müəllifi) və Xəqani Səfərov (Gilan Holding şirkətində insan resursları üzrə mütəxəssis) iştirak etdilər.

Aztəminatlı ailələrdən seçilən yüksək potensiallı gənclərin hərtərəfli fərdi inkişafına yönələn "Gələcəyini Qur!" Gəncliyə Dəstək Layihəsi artıq dördüncü ildir ki, həyata keçirilir. 2017-2018-ci tədris ilində layihəyə 2000-dən çox şagird müraciət etmiş, onlardan 240 məktəbli layihənin iştirakçısı adını qazanmışdır.

Manager of the project Bahruz Hidayatzade presented a diploma to Professor Hamlet Isakhanli and thanked him for continuous support and cooperation. It should be noted that in the current academic year of 2017-2018, Khazar University became the top selected university among alumni of the project – 25 project alumni started their programs at Khazar University in September 2017.

Dr. Elza Semedli, Dean of School of Education, spoke about the characteristics of a responsible person. Participants watched several short videos about responsibility and had a discussion afterwards.

Other speakers of the event included Javid Imamoglu (trainer and co-founder of "Ugur Akademiya"), Joshqun Karimov (trainer and author), and Khaqani Safarov (HR Specialist at Gilan Holding).

Currently in its 4th year, Build Your Future is a project carried out within the Corporate Social Responsibility policy of numerous local and international companies and aims at sustainable development of Azerbaijani youth through enabling their access to higher education. One hundred and twenty-five young people supported by the project in its 3rd year had entered local universities. This year, the project works with more than 240 young people from disadvantaged families who were selected among more than 2100 applicants.









## "XƏZƏR UNİVERSİTETİNDƏ I ÇİN HƏFTƏSİ" KEÇİRİLDİ

## "THE FIRST CHINESE WEEK" AT KHAZAR UNIVERSITY

Dekabrın 4-7-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin (KİM) təşkilatçılığı ilə "Xəzər Universitetində I Çin həftəsi" keçirildi.

Dekabrın 4-də açılış mərasimində Xəzər Universitetinin müəllim və tələbə heyəti, Bakı Dövlət Universitetinin Konfutsi İnstitutunun dekan və müəllimləri iştirak edirdilər.

KİM-in direktor müavini Aytac Misgərli tədbiri giriş sözü ilə açaraq, iştirakçıları salamladı. Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru İradə Xəlilova, Konfutsi İnstitutunun dekanı Luo Xiaozhi, Xəzər Universitetində Çin dili və mədəniyyəti müəllimi Li Ya və KİM-in əməkdaşı Samirə Orucova çıxış etdilər.

İqtisadiyyat və menecment fakültəsinin Çin dilini öyrənən tələbələri Çin, Azərbaycan və ingilis dillərində çıxışlarını təqdim etdilər. Sonra Çin folklor sənətinin nümunələrindən ibarət təcrübi işlər göstərildi.

On 4-7 December, "The First Chinese Week at Khazar University" hosted by Library Information Centre (LIC) of the University was held at Khazar University.

Pedagogical staff and students of Khazar University, deans and lecturers of Confucius Institute of Baku State University participated in the opening ceremony held on 4 December.

Aytaj Misgerli, Deputy Director of LIC, opened the event by welcoming the guests. Speeches were also delivered by Assoc. Prof. Irada Khalilova, Khazar University Vice Rector for Research, Luo Xiaozhi, Dean of Confucius Institute, Li Ya, Khazar University lecturer on Chinese language and its culture and Samira Orujova, a staff of LIC.

Later, the students of School of Economics and Management interested in Chinese made their presentations in Chinese, Azerbaijani and English. Practical works from Chinese folklore were demonstrated as well.



















Dekabrın 5-də Çin həftəsinin ikinci günü "Ənənəvi Çin incəsənətini kəşf edin" devizi ilə keçirildi. KİM-in əməkdaşı Samirə Orucova iştirakçılara Çin xalq sənətinin nümunələri haqqında məlumat verdi. Xəzər Universitetində Çin dilini tədris edən Li Ya Çin simvolları, Çin xəttatlıq sənəti və Çin rəsm sənəti haqqında məlumat verərək, tədbir iştirakçılarını təcrübi məşğələlərə dəvət etdi.

On 5 December, the second day of "The First Chinese Week" was held under the slogan "Discover Traditional Art of China". Samira Orujova, an employee of Library-Information Centre gave information about Chinese folk art. Li Ya, Chinese teacher at Khazar University informed on symbols, Chinese Art of calligraphy and painting, and invited the event participants to practical trainings.













Dekabrın 6-da Çin həftəsinin "Ənənəvi Çin mətbəxini kəşf edin" adlı üçüncü günü keçirildi. Tədbirdə xüsusi dəvət olunmuş aşbazlar Çin mətbəxinin məşhur çayı, müxtəlif yemək və şirniyyatları iştirakçılara təqdim etdilər.

On 6 December, the third day of "The First Chinese Week" titled "Discover Traditional Chinese Cousine" was held at Khazar University. Specially invited Chinese cooks presented the participants the famous tea of Chinese cousine, various dishes and sweets at the event.
















Dekabrın 7-də "Ənənəvi Çin oyunlarını kəşf edin" devizi ilə keçən dördüncü günlə "Xəzər Universitetində I Çin həftəsi" başa çatdı. Həftənin bağlanış mərasimində müəllim Li Ya və Konfutsi İnstitutunun əməkdaşları fəal iştirak etdilər. Tədbirdə professor Gaojunxia tərəfindən Tai chi - Çin döyüş sənəti tələbələrə nümayiş olundu.

Sonda tədbirdə fəal iştirak edən tələbələrə və Konfutsi İnstutunun müəllimlərinə hədiyyələr verildi.

Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/Azerbaycanda_ilk_defe_CHin_heftesi_teskil_olunub-1119190*) ölkənin aparıcı saytları və mətbuat orqanları "Xəzər Universitetində I Çin həftəsi" haqqında xəbər yaymışlar.

On 7 December, "The First Chinese Week" was successfully closed with its fourth day titled "Discover Traditional Chinese Plays". Li Ya, teacher of Chinese and the staff of Confucius Institute actively participated in the closing ceremony of the Week, while prof. Gaojunxia demonstrated the students Tai Chi – Chinese Martial Art. Active students and teachers of Confucius Institute were complemented with presents at the end of the event.

Leading news sites and media outlets of the country led by Azerbaijan State Information Agency - AZERTAG(*https://azertag.az/xeber/Azerbaycanda_ilk_defe_CHin_heftesi_teskil_olunub-1119190*) spread the news about "The First Chinese Week" held in Khazar University.









# PROFESSOR HAMLET İSAXANLIYA TƏŞƏKKÜR MƏKTUBU GÖNDƏRİLİB

Dekabrın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı BDU-nun Konfutsi İnstitutunun Beynəlxalq Çin dili və mədəniyyəti üzrə tədqiqatçısı Li Yadan təşəkkür məktubu almışdır. Məktubda dekabrın 4-dən 7-dək Xəzər Universitetində keçirilmiş "I Çin mədəniyyəti həftəsi"nin yüksək səviyyədə baş tutmasına görə, şəxsən Professor Hamlet İsaxanlıya, Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşları –Samirə Orucova və Aytac Misgərliyə və əməyi olan hər kəsə təşəkkür edilir və gələcəkdə də Xəzər Universiteti ilə mədəniyyət və tədqiqat sahəsində əməkdaşlığın vacibliyi vurğulanır.

(*Məktub aşağıda dərc olunur*).

# LETTER OF GRATITUDE SENT TO PROFESSOR HAMLET ISAXANLI

**Dear Prof. Hamlet Isaxanli**,

Good morning!

From 4th to 7th December, The first Chinese Culture Week was successfully held in Khazar University. Firstly, Please allow me to extend our sincere gratitude to your brilliant leadership, from this event, we saw a creative, competitive, international Khazar university.

Secondly, during the two-moths preparation, many thanks to Samira Orujova, Head of Section cataloging, Aytaj Misgarl, Deputy Director Library and Information Centre. They are really effective and well - organized, who make the plan run smoothly. Thanks for their considerate cooperation and well organization.

Thirdly, We should extend heartfelt thanks to the Faculty of Economics and Management, the dean Jeyhun Mammadov, and Khanim Nabiyeva and other teachers. It is really a great pleasure to work in such a warm and active family. In addition, many thanks to Chinese Language class students. They are responsible, kind-hearted,intelligent, gained many praise from my Chinese colleagues. I'm proud of them.

Last but not the least, please kindly delivery our thanks to the library, the Media Center, the canteen manager, the driver, and other faculties who support us in this event.

Finally, we want to say, Khazar University is really an excellent and outstanding university, It is my great honour to work here. Hope we have more culture exchanges and research cooperation in the future.

Sincerely,

**Li Ya**
*International Chinese*
*language& Culture Researcher*
*Confucius Institute of*
*Baku State University*

# "XƏZƏR"İN MÜƏLLİMLƏRİ RESPUBLİKA ELMİ KONFRANSINDA

Dekabrın 22-23-də Lənkəran Dövlət Universitetində (LDU) "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda keçirilən respublika elmi konfransında Xəzər Universitetini Təhsil fakültəsinin Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimləri dosent Elmira Məmmədova-Kekeç və Qardaşxan Əzizxanlı təmsil etdilər.

Konfransın "Dilçilik və ədəbiyyatşünaslıq" bölməsində E.Məmmədova-Kekeç "Türk xalqlarının "Vücudnamə" yaradıcılığında təzadlar", Q.Əzizxanlı isə "Çağdaş Azərbaycan şeirində xalq arxetipi və xalq yaradıcılığı problemi" mövzularında çıxış etdilər.

Qeyd edək ki, konfransda respublikamızda fəaliyyət göstərən 26 ali təhsil müəssisəsinin, Azərbaycan Milli Elmlər Akademiyasının institutlarının, Türkiyə Cümhuriyyətinin 2 universitetinin nümayəndələri iştirak edirdilər.

# MALAYZİYA SƏFİRİ PROFESSOR HAMLET İSAXANLIYA TƏŞƏKKÜR MƏKTUBU ÜNVANLAMIŞDIR

Malayziyanın fövqəladə və səlahiyyətli səfiri Roslan bin Abdul Rahman Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya Malayziya Perlis Universitetinin 2017-ci il noyabrın 20-26-da 13-cü akademik səfəri çərçivəsində Xəzər Universitetində keçirilmiş tədbirlərin təşkilində göstərdiyi köməyə görə təşəkkür məktubu ünvanlamışdır.

(*Məktub aşağıda dərc olunur*).

***Ambassador of Malaysia in Baku***
***Malayziyanın səfiri, Bakı***
***Azərbaijan***

**Professor Hamlet Isaxanli**
***Founder and Chairman of the Board of Directors and Trustee***

**Dear Professor Hamlet,**

On behalf of University Malaysia Perlis (UniMAP), I would like to thank you for making the 13th UniMAP Academic Tour to the Republic of Azerbaijan on 20-26 November 2017, headed by His Royal Highness Tuanku Syed Faizuddin Putra Ibni Tuanku Syed Sirajuddin Jamalullail, a success.

Thank you for your cooperation in making the meeting at Khazar University possible. The meetings between the management and student leaders of UniMAP and Khazar University were fruitful, where many potential collaborations were discussed and explored. It also provided the platform to forge new ties and friendship between UniMAP and Khazar University.

The signing of the Memorandum of Understanding (MoU) with Khazar University is a stepping stone for both universities to embark on a new journey towards a long and prosperous future in achieving new levels of success.

I believe that the newly established cooperation will enhance people-to-people connectivity and promote cultural and social exchange. At the same time, I believe that the educational links between UniMAP and Khazar University will be a catalyst to transform Malaysia and the Republic of Azerbaijan into global educational hubs in our respective regions.

I avail myself of this opportunity to convey to you, Professor, the assurances of my highest consideration.

**Roslan Bin Abdul Rahman**
*Ambassador*
*(Extraordinary and Plenipotentiary)*

***7 December 2017***





# RECTOR OF KHAZAR UNIVERSITY VISITS KOZMINSKI UNIVERSITY AND WARSAW POLYTECHNIC UNIVERSITY IN POLAND

Dr. Hassan Niknafs, the Rector of Khazar University along with Dr. Jeyhun Mahammadov, the Dean of the Faculty of Economics and Management visit two famous universities of Kozminski University and Warsaw University of Technology from December 4 through 8. In their visit to Kominski University they met with:

- Professor Witold Bielecki, the Rector of Kozminski University
- Dr. Powel Krzyworzeka, Dean of the Management Faculty
- Dr. Powel Mielcarz, Head of the Finance Department
- Joanna Kartasiewicz, Research Manager
- Dona Duda, Head of the Admissions for International Program
- Marcin Matyja, International Program Coordinator for Accreditation
- Valentyna Guminska, Director of the International Relations

The main subject for the meeting was concentrated in discussion for the process of obtaining EQUIS and EPAS Accreditation for Khazar University, School of Economics and Management. Khazar University will pursue EPAS Accreditation as the first step of this process. Also, in this meeting the possibility of a Dual-Degree program in Finance and Management was discussed in details and some positive agreements were made for establishing a Dual-Degree in between Kozminski University and Khazar University.



During this trip to Poland, Dr. Hassan Niknafs and Dr. Jeyhun Mahammadov visited Warsaw University of Technology and they met with the Vice-Rector, Prof. Krzysztof Lewenstein. In this meeting a possibility of a Dual-Degree Program in Civil Engineering major was discussed and it will be pursued so that it can implemented for the Fall Semester 2018. Also, possibilities of a mutual research in the fields of Polymer Science and Nano-Technology seemed to be feasible in between the two universities.



# GÖRKƏMLİ BƏSTƏKAR SƏRDAR FƏRƏCOVUN MÜƏLLİF KONSERTİ

Dekabrın 9-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Filarmoniyasının təşkilatçılığı ilə Əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Üzeyir Hacıbəylinin Ev Muzeyinin direktoru, görkəmli bəstəkar Sərdar Fərəcovun anadan olmasının 60 illiyi münasibətilə müəllif konserti keçirildi. Konsertdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə, musiqi ictimaiyyətinin nümayəndələri və Xəzər Universitetinin əməkdaşları iştirak edirdilər.

Konsertdən əvvəl Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxış edərək, Sərdar Fərəcovun görkəmli bəstəkar, musiqişünas və ictimai xadim kimi çoxşaxəli fəaliyyətindən danışdı. Bəstəkarın, demək olar ki, bütün musiqi janrlarında əsərlər yaratdığını və bu əsərlərin keçmiş SSRİ respublikalarında, Avropa və ABŞ-da da ifa edildiyini söylədi və yubilyara Bəstəkarlar İttifaqının təbrik məktubunu və gül dəstəsi təqdim etdi.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov çıxış edərək, Sərdar Fərəcovun zəngin yaradıcılığından söz açaraq, əsərlərinin türk respublikalarında ifa edildiyini söylədi və TÜRKSOY-un "Azərbaycan, Kazakistan, Kırgizistan, Özbekistan Cumhuriyetlerinin ve Türkmenistanın bağımsızlıklarının 25 Yılı anısına" medalını ona təqdim etdi. Sərdar Fərəcov çıxışında Bəstəkarlar İttifaqının və TÜRKSOY-un rəhbərliyinə təşəkkürünü bildirdi.

Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə keçən konsertdə bəstəkarın əsərləri Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası və solistlər tərəfindən ifa edildi. "Koroğlu" simfonik freskası, Şah Xətai simfoniya-dastan, "Cavad xan" baletindən süita, "Qarabağnamə" (tar və simfonik orkestr üçün), Hamlet İsaxanlının sözlərinə yazılmış "İstanbul Boğaz içi" vokal lövhə, "Sentimental vals" (violino və orkestr üçün) və "Sonsuzluq karvanı" oratoriyasından hissələr tamaşaçılara təqdim olundu. Solistlər Xalq artisti, tarzən Ramiz Quliyev, Əməkdar artist Fəridə Məmmədova, Beynəlxalq müsabiqələr laureatı, skripkaçı Zərrin Əliyeva, Xəzər Universitetinin vokal müəllimi Məhsəti Cabbarova və Prezident mükafatçısı İsmayıl Yunisov idi.

Konsert tamaşaçıların sürəkli alqışları ilə başa çatdı.



















## "İNNOVASİYA VƏ TƏRƏQQİNİN AÇARI - İNTERNET" DEVİZİ ALTINDA FORUM KEÇİRİLDİ

Dekabrın 7-də ADA Universitetində BMT İnkişaf Proqramının Azərbaycan nümayəndəliyi, ADA Universiteti və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, BMT-nin İnternet İdarəçilik Forumu üzrə Cenevrə Katibliyi və BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə departamenti tərəfindən "İnnovasiya və tərəqqinin açarı - internet" devizi altında təşkil olunmuş 5-ci Regional İnternet İdarəçilik Forumu keçirildi.

Forumda xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən diplomatik korpuslarının rəhbərləri, nazirlər, millət vəkilləri, bir sıra universitetlərin nümayəndələri, QHT rəhbərləri iştirak edirdilər. Forumun açılışında Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.

## THE FORUM UNDER THE MOTTO "INTERNET – THE KEY OF INNOVATION AND PROGRESS" WAS HELD

On December 7, the ADA University in Azerbaijan, ADA University and the Ministry of Transport, The Ministry of Communication and High Technologies of the Azerbaijan Republic, the UN Geneva Secretariat for the Internet Governance Forum and the United Nations Department of Economic and Social Affairs, The 5th Regional Internet Governance Forum organized under the motto "Internet – the key of Innovation and progress" was held. The leaders of diplomatic corps of foreign countries operating in Azerbaijan, ministers, MPs, representatives of a number of universities, NGO leaders participated in the forum. Director of Public Social) Relations and Media Alovsat Amirbeyli participated at the opening ceremony of the forum.







## SOCAR-IN DAXİLİ TƏQAÜD PROQRAMININ QALİBLƏRİ MÜƏYYƏNLƏŞDİ

Dekabrın 13-də SOCAR TOWER-də şirkətin əsas sosial məsuliyyət layihələrindən olan Daxili Təqaüd Proqramı çərçivəsində 2016/2017-ci tədris ilinin nəticələrinə əsasən təqaüd qazanmış 70 tələbənin təqaüd kartlarının təqdim olunma mərasimi keçirildi. Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin 3 tələbəsi –Asif Həsənli (Kimya mühəndisliyi), Murad Tapdıqlı (İnşaat mühəndisliyi), Aqşin Babayev (Neft mühəndisliyi) bu proqramın qalibləri arasında idilər (fotolar mətn ardıcıllığı ilə verilmişdir). Təqaüdün məbləği hər tələbə üçün bir il ərzində 1000 AZN təşkil edir.

Tədbirdə SOCAR rəhbərliyinin nümayəndələri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təmsilçiləri, ölkədə fəaliyyət göstərən ali təhsil ocaqlarının rəhbərləri iştirak etmişdir.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU "PSİXOTERAPİYANIN TƏKMİLLƏŞDİRİLMƏSİ" ADLI BEYNƏLXALQ KONFRANSDA




2017-ci ilin dekabrında Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Ülkər İsayeva Kaliforniya ştatının (ABŞ) Anaheim şəhərində keçirilmiş "Psixoterapiyanın təkmilləşdirilməsi" adlı konfransda iştirak etdi.

Milton H.Erickson Fondunun təşkil etdiyi konfrans sağlamlıq sahəsində akkreditə olunmuş qurumların magistr və daha üst dərəcəsi olan mütəxəssisləri üçün açıqdır və dörd ildən bir Anaheim Konqres Mərkəzində keçirilir. 20 ölkəni təmsil edən 7000 nəfər mütəxəssisin iştirak etdiyi konfransda psixologiya və psixiatriya sahəsində mühazirələr oxunur, çıxışlar dinlənilir, seminarlar keçirilir, müzakirələr aparılır.

## THE COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT OF KHAZAR UNIVERSITY AT "THE EVOLUTION OF PSYCHOTHERAPY" CONFERENCE

The coordinator of Psychology department of Khazar University, Ulker Isayeva is attending the Evolution of Psychotherapy Conference held at Anaheim, California. The conference organized by Milton H. Erickson Foundation is open to professionals with a master's degree and above in health-related fields from accredited institutions and it is being held every four years at the Anaheim Convention Center. 7000 professionals from 20 different countries are attending the conference this year in December, 2017, and many prominent names in the field of psychology and psychiatry are giving lectures, workshops and speeches, participate in debates, clinical demonstrations, and topical panels

## "UNİVERSİTETLƏRDƏ REKTOR SEÇKİSİ KEÇİRİLSƏ, NƏ BAŞ VERƏR..."

Modern.az saytı Azərbaycanın ali təhsil müəssisələrinə rektorların seçki yolu ilə vəzifəyə gəlməsinə təhsil ekspertlərinin münasibətini öyrənməyə çalışmışdır. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da məsələyə münasibət bildirmişdir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:
*http://modern.az/az/news/151926*
*http://www.dia.az/8/163703-universitetlerde-rektor-sechkisi-kechirilse.html*
*http://istiqlal.az/news/46329.html*

## "XƏZƏR"İN ƏMƏKDAŞI ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ MÜDAFİƏSİ İLƏ BAĞLI KONFRANSDA İŞTİRAK ETDİ

Dekabrın 14-də Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər üzrə bölməsinin müdiri Eldar Şahgəldiyev Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə əməkdaşlığı ilə Bakıda təşkil olunmuş "Müəllif hüququna hörmətin aşılanması və rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə" mövzusunda beynəlxalq konfransda iştirak etdi.

Tədbirdə rəqəmsal mühitdə müəlliflik hüququ və onun pozulması hallarına qarşı mübarizə tədbirləri, əqli mülkiyyət sahəsində beynəlxalq əməkdaşlıq və onun perspektivləri, əqli mülkiyyət hüquqlarının müdafiəsi məsələləri müzakirə olundu.




# "ELMİ YAZI, NƏŞR VƏ TƏDQİQAT ETİKASI" MÖVZUSUNDA SEMİNAR - KONFRANS

# SEMINAR - CONFERENCE ON SCIENTIFIC WRITING, PUBLICATION AND ETHICS OF RESEARCH WAS HELD AT KHAZAR UNIVERSITY

Dekabrın 14-də Xəzər Universitetində İran İslam Respublikasından dəvət edilmiş məruzəçi Dr. Mehrdad Jalalian Hosseini "Elmi yazı və tədqiqatların dərc edilməsi və etikası haqqında ümumi məlumat" mövzusunda məruzə ilə çıxış etdi. Seminarda Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Elmi işlər üzrə prorektor dosent İradə Xəlilova, Azərbaycan Tibb Universitetinin Terapevtik və pediatrik propedevtika kafedrasının dosenti Səidə Xanməmmədova, Biokimya kafedrasının assistenti Dr. Hafiz Osmanov, "Nərgiz" klinikasının rəhbəri Dr. Məlahət Qəhrəmanova, müxtəlif kafedralardan PhD və magistr tələbələr iştirak edirdilər.

On December 14, invited speaker Dr. Mehrdad Jalalian Hosseini delivered a lecture entitled "An overview of scientific writing and ethics of publishing research". The seminar was attended by Dr. Hassan Niknafs, rector of Khazar Univerity, associate research professor Irada Khalilova, Vice-Rector for Research, Dr. Saida Khanmamedova, associate professor of department of Therapeutic and Pediatric of Propaedeutics of Azerbaijan Medical University, Dr. Hafiz Osmanov, assistant professor of Biochemistry department of Azerbaijan Medical University, Dr. Malahat Gakhramanova, head of the "Nargiz" clinic, Ph.D. and master students from different departments.








İki hissədən ibarət seminar-konfransın birinci hissəsində Dr. Mehrdad Jalalian Hosseini effektiv abstrakt yazmaq, ikinci hissəsində isə jurnal məqalələrinin yazılmasında əsas prinsipləri necə tətbiq etmək barədə ətraflı məlumat verdi. Seminar zamanı effektiv yazı metodlarının müxtəlif yollarının istifadə edilməsində iştirakçılarla aktiv və geniş müzakirələr aparıldı.

Qeyd edək ki, Dr. Mehrdad Jalalian Hosseini *Electronic Physician Journal* ("Elektron Həkim Jurnalı", PubMed İndeksləşmiş) baş redaktoru və Mehr Nəşriyyatının təsisçisidir. O, bir sıra ölkələrdə çoxsaylı seminarlar və vorkşop təlimləri keçirmiş, həmçinin, tibbi konfranslarda dəvətli məruzəçi kimi çıxış etmişdir. Onun təcrübə sahələri etika, elmi yazı və elmi tədqiqatlardan nəşrlərin maksimum artırılmasıdır.

The seminar-conference consisted of two parts. Dr. Mehrdad Jalalian Hosseini, delivering a speech in the first part, gave detailed information on how to write effective abstract, and in the second part about how to apply important principles in formal journal articles. During the seminar, active and broad discussions were held on different ways of effective writing methods.

Dr. Mehrdad Jalalian Hosseini is an Editor-in-Chief of Electronic Physician Journal (PubMed indexed) and a Founder of Mehr Publishing. He has conducted numerous seminars and workshops in a number of countries and has also acted as an invited key speaker in medical conferences. His areas of expertise are publishing ethics, scientific writing, and maximizing publications in academic research.











# PROFESSOR HAMLET İSAXANLIYA VƏ XALÇAÇI RƏSSAM AFAQ KƏRİMOVAYA KAZIM QARABƏKİR VƏQFİNİN ÖDÜLLƏRİ TƏQDİM OLUNDU

Dekabrın 15-də AMEA Mərkəzi Elmi Kitabxanası (MEK) və "Turan Cavid Qadın Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə MEK-də "Türk dünyasının qüdrətli qılınc və qələmi" adlı konfrans keçirilib. Tədbir Türk dünyasının iki böyük siması - Azərbaycan ədəbiyyatında mənzum dram janrının banisi, böyük romantik şair və ictimai xadim Hüseyn Cavidin və Türkiyə dövlət və hərbi xadimi Kazım Qarabəkirin anadan olmalarının 135 illiyinə həsr olunub.







Tədbirdə AMEA-nın, dövlət və ictimai qurumlarının, ali məktəblərin nümayəndələri, Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, Hüseyn Cavid və Kazım Qarabəkir mövzusuna müraciət etmiş sənətşünaslar, filoloq alimlər, rəssamlar, musiqi ifaçıları, aktyorlar, Hüseyn Cavid və Kazım Qarabəkirin ailə üzvləri iştirak ediblər.

Tədbirdə, həmçinin, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin Mədəniyyət Mərkəzinin direktoru və müəllimi, tanınmış xalçaçı rəssam Afaq Kərimova iştirak etmişlər.

Afaq Kərimova "Təsviri sənətdə Hüseyn Cavid" mövzusunda çıxışında Hüseyn Cavid mövzusuna müraciət edən sənətkarlardan söz açıb, müəllifi olduğu "Əbədiyyət" və "Heydər Əliyev və Hüseyn Cavid" xalçalarını, eləcə də "Planet" plakatı və "Alın yazısı" batikasını təqdim edib.

Tədbirdə Xəzər Universiteti və universitetin "Dünya" məktəbində Hüseyn Cavidin xatirəsinə və yaradıcılığına həsr olunan mərasimlər keçirildiyi vurğulanıb.

Tədbirdə Azərbaycanın tanınmış elm və sənət xadimlərinə ödüllər təqdim olunub. Kazım Qarabəkir Vəqfinin rəhbəri, Kazım Qarabəkirin qızı Timsal Qarabəkir vəqfin fəaliyyətində iştiraklarına görə professor Hamlet İsaxanlıya və xalçaçı rəssam Afaq Kərimovaya Kazım Qarabəkir Vəqfinin ödüllərini təqdim edib.

# PROFESSOR HAMLET İSAXANLI TEDxUNEC-DƏ ÇIXIŞ ETDİ




Dekabrın 15-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycan Dövlət İqtisad Universitetinin təşkil etdiyi TEDxUNEC tədbirində spiker qismində iştirak etdi. "Çərçivədən kənar" mövzusuna həsr olunan konfransın ilk spikeri professor Hamlet İsaxanlı oldu. "Təhsilin gələcəyi – gələcəyin təhsili" mövzusunda çıxış edən professor bəşəriyyətin gələcəyinin elmdə olduğunu vurğuladı.

Kitabla rəqabət aparan informasiya daşıyıcılarının çoxluğuna diqqət çəkən H.İsaxanlı əsas bilik ötürücülərini informasiya-kommunukasiya alətləri, ailə və universitet kimi təsnifatlandırdı. O, bu vasitələrin hər üçündən maksimum yararlanmağı tövsiyə etdi: "Gələcəyimiz bu gün gördüyümüz işlərin davamıdır. Yaxşı təhsil, daha yaxşı gələcək deməkdir!"

# PROFESSOR HAMLET ISAXANLI ATTENDED TEDxUNEC

On December 15, Prof. Hamlet Isaxanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, as a speaker attended the TEDxUNEC conference organized by the University of Economics. Prof. Hamlet Isaxanli was the first speaker of the conference dedicated to the "Outside Frame". Talking on the topic "Future of the education – education of future", the professor stated that the future of the mankind laid on science. Hamlet Isaxanli mentioned the abundance of information carriers, which competed with books and classified knowledge transmitters as information communication tools, family, and university. He advised to take advantage of all these three means: "Our future is a continuation of the present works. Good education means good future!"

# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN MÜDİRİ YENİ YARANAN ASSOSİASİYANIN ÜZVÜ SEÇİLDİ

Dekabrın 15-də Azərbaycan Milli Elmlər Akademiyasında Azərbaycan Su İstifadəçiləri Assosiasiyasının təsis yığıncağı keçirildi. Assosiasiyada respublikanın nazirliklərinin, aparıcı elmi tədqiqat institutlarının tanınmış su mütəxəssisləri təmsil olunurdular. Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov təsis yığıncağında işçi qrupunun üzvü seçildi.

Qeyd edək ki, Xəzər Universiteti bu qurumda təmsil olunan yeganə universitetdir.

# "ÖVLADIMA NECƏ YANAŞIM? MÜTƏXƏSSİS VƏ VALİDEYNLƏRƏ DƏSTƏK" MÖVZUSUNDA SEMİNAR

Dekabrın 16-da Xəzər Universiteti Psixologiya departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə universitetdə "Övladıma necə yanaşım? Mütəxəssis və valideynlərə dəstək" mövzusunda seminar keçirildi.

Seminarı Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi Kəmalə Əliyeva apardı. Seminarda uşaqlarla düzgün ünsiyyət qurmaq yolları, davranış qüsurlarının aradan qaldırılması üsulları, ailə modellərinin uşaq şəxsiyyətinin inkişafına təsiri, bəzi ailə modellərinin uşaqlarda ortaya çıxardığı psixoloji problemlər və uşaqlarda özünə inamın inkişafı mövzuları müzakirə edildi. Seminarda Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova da cəmiyyətin bu mövzuda maarifləndirilməsinin zəruri olduğunu qeyd edərək, Kəmalə Əliyeva ilə bərabər, iştirakçıların suallarını cavablandırdı.





## "DÜNYA" MƏKTƏBİNDƏ SEMİNAR

Dekabrın 8-də Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Dr. Elza Səmədova universitetin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbinin müəllim kollektivi üçün beynəlxalq qiymətləndirmə proqramları haqqında seminar-mühazirə keçirdi. Seminarın əsas məqsədi "Dünya" məktəbinin kollektivini 2018-ci ildə keçiriləcək PİSA – Beynəlxalq Qiymətləndirmə Proqramının məqsədi, standartları və məzmunu haqqında məlumatlandırmaq, imtahan tapşırıqlarının strukturu və tapşırıq növləri ilə tanış etmək idi.

Seminarda azərbaycanlı şagirdlərin 2006-cı və 2009-cu illərdə əldə etdikləri nəticələr müzakirə olunaraq, onların inkişaf etdirdiyi və inkişaf etdirməli olduğu bacarıqlar üzərində təhlillər aparıldı, ən son 2015-ci ildə təşkil olunmuş imtahan tapşırıqlarından nümunələr incələndi və bu tapşırıq nümunələri müəllimlərə paylama materialı olaraq təqdim olundu.

## DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN 10 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLMİŞ ELMİ - PRAKTİK KONFRANSIN MATERİALLARINDAN İBARƏT TOPLU

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və Xəzər Universitetinin təşkilatçılığı ilə Dövlət Miqrasiya Xidmətinin 10 illiyi münasibətilə 2017-ci il fevralın 17-də universitetdə "Azərbaycanda miqrasiya siyasəti: nailiyyətlər və inkişaf perspektivləri" mövzusunda keçirilmiş elmi-praktik konfransın materiallarından ibarət toplu Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmışdır.

30 - dək elmi məruzənin yer aldığı toplunun redaktoru və ön sözün müəllifi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıdır.




## SIENTIFIC - PRACTICAL CONFERENCE PAPERS DEDICATED TO 10TH ANNIVERSARY OF STATE MIGRATION SERVICE PUBLISHED

On February 17, 2017, the State Migration Service of the Republic of Azerbaijan and Khazar University jointly published the collection of materials from the Scientific-Practical Conference on "Migration Policy in Azerbaijan: Achievements and Development Perspectives", dedicated to the 10th anniversary of the State Migration Service.

The collection of materials was published in Khazar University Press and consists of about 30 articles. The editor of this collection and preface author is Professor Hamlet Isaxanli, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees.




## XƏZƏR UNİVERSİTETİNDƏ HÜQUQŞÜNAS TƏLƏBƏLƏRİN VƏ MƏZUNLARIN KONFRANSI KEÇİRİLDİ

Dekabrın 16-da Xəzər Universitetində hüquqşünas tələbələrin və məzunların konfransı keçirildi.

Beynəlxalq Vəkillər Assosiasiyasının, Xəzər Universitetinin Hüquq Tədris Mərkəzinin və müstəqil hüquqşünas Lalə Darçınovanın təşkilatçılığı ilə keçirilən konfransda tələbələr, peşəkar hüquqşünaslar, Azərbaycan Vəkillər Kollegiyasının üzvləri, Beynəlxalq Vəkillər Assosiasiyasının nümayəndələri və Böyük Britaniyanın London şəhərində yerləşən "Doughty Chambers"in vəkil üzvləri iştirak edirdilər.

Tədbiri Lalə Darçınova açaraq qeyd etdi ki, konfransın məqsədi gənc hüquqşünaslarla praktiki hüquqşünasları bir araya gətirərək, hüquq peşəsindəki mövcud problemlərdən, çətinliklərdən danışmaq və gənc hüquqşünasların düzgün ixtisaslaşmasına kömək etmək, onları gələcək peşə seçimində düzgün qərar verməkdə istiqamətləndirməkdir.

Konfransda Beynəlxalq Vəkillər Assosiasiyasının hüquqşünası Jurate Guzeviciute (London), müstəqil hüquqşünas Könül Qasımova, Marmara Universitetinin (Türkiyə) hüquq ixtisası üzrə magistr tələbəsi Elnur Kərimov və İtaliyanın Roma Universitetinin hüquq ixtisası üzrə magistr tələbəsi Nərmin Əbilova çıxış etdilər.

Konfrans müzakirələrlə davam edərək, işini başa çatdırdı.

## DEPARTAMENT MÜDİRİ AMEA COĞRAFİYA İNSTİTUTUNDA MÜHAZİRƏ İLƏ ÇIXIŞ ETDİ

Dekabrın 21-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Azərbaycan Milli Elmlər Akademiyasında "Xocasən gölünün su balansı" mövzusunda məruzə ilə çıxış etmişdir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://azertag.az/xeber/Cografiya_Institutunda_Khocasan_golunun_su_balansina_dair_muzakireler_aparilib-1122961;

*http://igaz.az/az/news/418*

## "XƏZƏR"İN ƏCNƏBİ DOKTORANTI MÜSAHİBƏ VERDİ

Azvision.az saytı dekabrın 15-də Xəzər Universitetinin iqtisadiyyat üzrə doktorantı, pakistanlı tədqiqatçı Sana İmranla müsahibəni yayımlamışdır. "Azərbaycan öz regionuna və ondan kənara "tranzit və logistik mərkəz" kimi xidmət edə bilər" başlıqlı müsahibə ingilis dilindədir.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:

*https://en.azvision.az/news/%2077220/-azerbaijan-can-serve-%20as-transit-and-logistic-hubs-%20to-its-region-and-beyond-.html*





# XƏZƏR UNİVERSİTETİNDƏ "TÜRK DÜNYASI BİLGİ ŞÖLENİ" KEÇİRİLDİ







Dekabrın 21-də Xəzər Universitetinin Mərmər zalında universitetin Təhsil fakültəsinin Azərbaycan dili və ədəbiyyatı departamentində tədris olunan Türkologiyaya giriş, Türk ləhcələrinin müqayisəli qrammatikası fənlərinin müəllim və tələbələri tərəfindən hazırlanmış və Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının yubileyinə həsr olunmuş "Türk Dünyası Bilgi Şöleni" adlı ədəbi-musiqili tədbir keçirildi.

Tədbirdə professor Hamlet İsaxanlı başda olmaqla universitetin rəhbərliyi, əməkdaşları və tələbələri, Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirliyinin mədəniyyət və turizm üzrə müşaviri Adem Keleş, AMEA Folklor İnstitutunun xarici ölkələrlə əlaqələr bölməsinin rəhbəri, professor Əli Şamil, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Bədirxan Əhmədli, AMEA Dilçilik İnstitutunun Təhsil şöbəsinin müdiri Qətibə Quliyeva, 365 xəbər.com-un təsisçisi Anar Əsəd və media mənsubları iştirak edirdilər.

Tədbirin məqsədi 200 milyondan çox insanın mənsub olduğu böyük Turan ailəsinə diqqəti cəlb etmək, türk dünyasının dil yadigarları və folklor nümunələrini iştirakçıların nəzərinə çatdırmaq idi.

Tədbir tələbələrdən ibarət xorun ifasında türk xalqlarının birliyini tərənnüm edən "Turan marşı"nın ifası ilə başlandı.

Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Dr. İlahə Qurbanlı və Təhsil fakültəsinin dekanı Dr. Elza Səmədli çıxış edərək, tədbirin ideyasını və əhəmiyyətini açıqladılar.



Tədbirin kompozisiyası türk xalqlarının formalaşması, eramızdan əvvəlki dövrdən başlayaraq yazılı abidələrin tələbələr tərəfindən müvafiq ləhcədə səsləndirilməsi, folklor nümunələrinin ifası, sənədli filmlərdən fraqmentlərin nümayişi və türk xalqlarının adət - ənənələrinin, geyimlərinin, həmçinin mətbəxlərinin təqdimatından ibarət idi.

Böyük Hun imperatoru Metenin eramızdan əvvəl 176-ci ildə Çin imperatoruna göndərdiyi məktubdan başlayaraq sonrakı müxtəlif tarixi dövrlərə aid mətnlər də yazıldıqları ləhcədə səsləndirildi. Türk xalqlarının adət - ənənələri tələbələrin hazırladıqları səhnəciklər vasitəsilə nümayiş etdirildi, mahnılar ifa olundu.

AMEA Folklor İnstitutunun xarici ölkələrlə əlaqələr bölməsinin rəhbəri, professor Əli Şamil, AMEA Dilçilik İnstitutunun Təhsil şöbəsinin müdiri Qətibə Quliyeva türk xalqlarının tarix və mədəniyyətinin müxtəlif cəhətlərindən bəhs edərək, tələbələrin çıxışlarını yüksək qiymətləndirdilər.

Xəzər Universitetinin qurucusu, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı geniş çıxışında türk xalqlarının tarixi inkişafına, folkloruna və türk dillərinin formalaşmasına dair fikir və mülahizələrini söylədi, tədbirin təşkilatçılarına və tələbələrə təşəkkürünü bildirdi.

Tədbir Xəzər Universitetinin tələbələrdən ibarət xorunun və rəqs ansamblının ifası ilə başa çatdı.










## XƏZƏR UNİVERSİTETİ PhD VƏ MAGİSTR BİRLİYİNİN NÖVBƏTİ SEMİNARI

Noyabrın 23-də Xəzər Universiteti PhD və Magistr Birliyi seminar təşkil etdi. Seminarın açılışını Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru dosent İradə Xəlilova etdi. O, yeni PhD və magistr tələbələri tədqiqat seminarlarında aktiv iştirak etməyə çağırdı.

Seminarda universitetin Magistratura, doktorantura və elmi işlər şöbəsinin müdiri Dr. Eldar Şahgəldiyev dissertasiya, tezis və elmi məqalələrin yazılması qaydaları ilə əlaqədar çıxış etdi.

Seminarın ikinci hissəsində Bioloji elmlər departamentinin müəllimi Dr. Babək Əlibəyov elmi jurnal və konfranslara təqdim edilən xülasələrin keyfiyyətli yazılması qaydaları haqqında praktiki və nəzəri bilikləri təqdim etdi. Seminarda gənc alimlər, PhD və magistr tələbələr iştirak edirdilər. Seminar maraqlı müzakirələr ilə bitdi. Sonda bu seminardan qazanılan nəzəri biliklərin növbəti seminarda praktiki olaraq tətbiq edilməsi və müxtəlif ixtisasdan olan tədqiqatçıların qısa xülasə ilə çıxış edərək, xülasələrin uyğun kriteriyalarla hərtərəfli müzakirə edilməsi qərara alındı. Bu zaman ədəbiyyat siyahısının yaradılması və bunun üçün EndNote proqramından praktiki olaraq istifadə edilməsi məsləhət görüldü.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs seminarda iştirak edirdi.

## THE FOLLOWING SEMINAR OF KHAZAR UNIVERSITY PhD AND MASTER'S ASSOSIATION

On November 23, the Assosiation of PhD and Master's of Khazar University hosted a seminar. The opening of the seminar was made by Assoc. Prof. Irada Khalilova, the vice-rector for Research of Khazar University. She urged new PhD and Master students to take an active part in research workshops.

At the seminar, Dr.Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, delivered a speech on writing dissertation, thesis and the research papers.

In the second part of the seminar, Dr.Babak Alibeyov, the instructor of the Department of Biological Sciences, presented practical and theoretical knowledge on the rules of quality writing for scientific journals and conferences.Young scientists, PhD and Master students participated in the seminar. The seminar ended with interesting discussions.

At the end, it was decided to apply the theoretical knowledge gained from this seminar and conduct a thorough discussion of the abstracts of research students from different specialties in the next seminar.

It was recommended to use the EndNote program to make a reference list.

Dr. Hassan Niknafs, rector of Khazar University attended the seminar as well.





# SEMINARS ON APPLIED LINGUISTICS AND RESEARCH METHODOLOGY HELD AT KHAZAR UNIVERSITY

English Language and Literature department conducted two seminars on Applied Linguistics and Research Methodology led by Dr. Salahshour on Thursday November 23. During the seminars, application of linguistics to the field of English language teaching, which is very much relevant to mission and vision of Khazar university, was discussed in details. On the other hand, the guidelines for promotion of research works in the department were pointed out in a systematic PowerPoint presentations.

All the instructors of English Language and Literature Department together with MA students (1st and 2nd years of Translation and Linguistics) took part in the seminars. The seminars were attended by the interested researchers from different universities as well. Certificates of participation were issued for the registered applicants of the two seminars.

Furthermore, Dr. Salahshour supervised some of the research students.





## TARİXÇİ TƏLƏBƏLƏR ATƏŞGAHDA OLDULAR

Noyabrın 24-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə tarix müəllimliyi ixtisasının birinci kurs tələbələri Atəşgah məbədində oldular. Tələbələr məbədi gəzdilər. Tarixi qoruğun bələdçisi tələbələrə məbədin tarixi, coğrafi mövqeyi və s. haqqında məlumat verdi.

Qeyd edək ki, Atəşgah XVII-XVIII əsrlərdə təbii qazın çıxdığı sönməz alovların yerində inşa edilmiş od məbədidir.

## STUDENTS OF HISTORY FACULTY VISITED ATESHGAH

On November 24, 1st year students majoring in History Studies went on a trip to Atashgah, organized by the Department of History and Archaeology, Khazar University. The students walked around the temple. The guide of the historical reserve provided the students with the information on the history and geographical location of the temple.

It should be noted that Atashgah is a fire temple constructed in XVII-XVIII centuries on inextinguishable flames of natural gas.



## "CAUCASUS INTERNATIONAL" JURNALININ TƏQDİMATI

## PRESENTATION OF "CAUCASUS INTERNATIONAL" JOURNAL

CAUCASUS International
Challenging conventional thinking in the Caucasus

Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) tərəfindən Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müəllim və tələbələri üçün "Caucasus İnternational" jurnalının təqdimatı keçirildi.

Təqdimatı SAM-ın Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi, "Caucasus İnternational" jurnalının redaktor müavini İlqar Qurbanov və SAM-ın Media üzrə mütəxəssisi Şəbnəm Məhərrəmova keçirdilər.

On November 24, Presentation of the journal "Caucasus International" for lecturers and students of the Department of Political Science and International Relations of Khazar University was held by the Center for Strategic Studies under the President of the Republic of Azerbaijan (SAM).

The presentation was conducted by Ilgar Gurbanov, a scientific worker at SAM's Foreign Policy Analysis Department, Editor-in-Chief of Caucasus International, and Shabnam Maharramova, SAM's Media Specialist.





## AZƏRTAC XƏZƏR UNİVERSİTETİ NƏŞRİYYATINDA ÇAPDAN ÇIXMIŞ KİTAB HAQQINDA MƏLUMAT VERDİ

2017-ci il noyabrın 29-da Azərbaycan Dövlət İnformasiya Agentliyi-AZƏRTAC Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmış "Dünya dillərində homogen sözlər" (müəllif Baba Məhərrəmli) monoqrafiyası haqqında xəbər yayımlamışdır.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*https://azertag.az/xeber/Monoqrafiyada_ilk_defe_300_dek_dilin_analoji_soz_kokleri_muqayise_olunub-1116132*




## AZERTAG RELEASED INFORMATION ABOUT THE BOOK PUBLISHED IN KHAZAR UNIVERSITY PUBLISHING HOUSE

On November 29, 2017, the official website of Azerbaijan State Information Agency (AZERTAG) released the news about the monograph "Homogeneous Words in the World Languages" (author Baba Maharramli) published in the Khazar University Publishing House.

The news is available at:

*https://azertag.az/xeber/Monoqrafiyada_ilk_defe_300_dek_dilin-analoji_soz_kokleri_muqayise_olunub-1116132*





## "BİR" TƏLƏBƏ - KÖNÜLLÜ PROQRAMI XƏZƏR UNİVERSİTETİNDƏ

Noyabrın 24-də "Bir" Tələbə-Könüllü Proqramı tərəfindən Xəzər Universiteti Tələbə Məclisinin təşkilati dəstəyi, 150-dən çox tələbənin iştirakı ilə təqdimat keçirildi. Təqdimat zamanı tələbələrin böyük əksəriyyəti könüllü olmaq üçün www.konullu.edu.az portalından proqrama qoşuldu.

Tələbələrin böyük maraqla qatıldığı təqdimat zamanı iştirakçılara "Bir" Tələbə-Könüllü Proqramı, ölkəmizdə könüllülük fəlsəfəsi, proqramın əsas istiqamətləri və proqramın fəaliyyətlərində iştirak imkanları haqqında məlumat verildi. İnteraktiv üsulla keçirilən təqdimat zamanı tələbələr könüllülük haqqında fikirlərini bölüşdülər, kreativ təşəbbüslərlə çıxış etdilər.

Təqdimat zamanı, həmçinin, "Bir" Tələbə-Könüllü Proqramı və Bakı Şəhər Halqası Əməliyyat Şirkəti arasında "Formula-1" Avropa Qran Prisi çərçivəsində imzalanmış rəsmi əməkdaşlıq memorandumu əsasında tələbələrə "Formula-1" Avropa Qran Prisi zamanı könüllü olmağın üstünlükləri haqqında məlumat verildi. Bunun nəticəsində, tələbələr "Formula-1" Avropa Qran Prisində könüllü olmağa böyük həvəs və maraq göstərdilər.

## "ONE" STUDENT - VOLUNTEER PROGRAM AT KHAZAR UNIVERSITY

With organisational support by Khazar University Student Assembly and participation of more than 150 students, "One" Student-Volunteer Program made a presentation on 24th of November, 2017. On November 24, a presentation was made by "One" Student-Volunteer Program with organisational support of Khazar University. At the presentation the majority of the students joined www.konullu.edu.az portal to become a volunteer.

"One" Student-Volunteer Program provided the students, who took part in the event with huge interest, with information about philosophy of volunteering in our country, main spheres of the program and possibilities of participation in this program. The presentation was conducted in an interactive method which enabled the students to share their ideas and creative initiatives.

The students were also made familiar with advantages of becoming a volunteer in "Formula-1" European Grand Prix within official memorandum of cooperation made between "One" Student-Volunteer Program and Baku Ring Operating Company. As a result, students became enthusiastic in volunteering in "Formula-1" European Grand Prix.

## "XƏZƏR"İN MƏZUNU MÜSAHİBƏ VERDİ

2017-ci il noyabrın 20-də A24.az xəbər saytı Xəzər Universitetinin məzunu, İbrus Teatrının aktyoru Zaur Şəfiyevlə müsahibəni yayımlamışdır.

Müsahibəni tam şəkildə buradan oxumaq olar:

*http://a24.az/rasim-balayev-kimi-aktyora-deyer-verilmirse-vay-bizim-halimiza-zaur-sefiyevle-musahibe/*

## KHAZAR UNIVERSITY GRADUATE GAVE AN INTERVIEW

On November 20, 2017, A24.az news website published an interview with Zaur Shafiyev, the actor of Ibrus Theatre and graduate of Khazar University. The full interview can be read here:

*http://a24.az/rasim-balayev-kimi-aktyora-deyer-verilmirse-vay-bizim-halimiza-zaur-sefiyevle-musahibe/*

# PETRA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ QAZİ UNİVERSİTETİNDƏ GÖRÜŞ

# MEETING AT GAZI UNIVERSITY WITHIN PETRA PROJECT

Erasmus+

Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Dr. Elza Səmədova, Riyaziyyat departamentinin müdiri Dr. Əli Hüseynli və İnkişaf mərkəzinin layihə meneceri Ülkər Bayramova "Azərbaycan universitetlərində tədris və təlimin təkmilləşdirilməsi" (PETRA) adlı ERASMUS+ layihəsi çərçivəsində Türkiyənin Qazi Universitetində noyabrın 19-dan 24-dək keçirilən silsilə seminarlarda iştirak etdilər.

Tədbirdə həm Azərbaycandan (Xəzər Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Universiteti), həm də Avropadan (Debrecen Universiteti - Macarıstan, Valensiya Politexnik Universiteti - İspaniya, Vyana Tətbiqi Elmlər Universiteti - Avstriya, Qazi Universiteti - Türkiyə) olan tərəfdaş universitetlərin 40-a yaxın nümayəndəsi iştirak edirdi.

Beş günlük seminarda iştirakçılar Qazi Universiteti, universitet fakültələri, universitetdə təlim-tədrisin təşkili, fənn laboratoriyaları və laboratoriyalarda təcrübələrin aparılması, müxtəlif dərslərdə öyrənmə və öyrətmənin yeni metodlarla təşkili haqqında geniş məlumatlar əldə etdilər, müxtəlif dərsləri əyani olaraq dinlədilər. Bundan əlavə, iştirakçılar üçün açıq havada coğrafiya dərslərinin təşkili və onun həyata keçirilməsini nümayiş etdirmək üçün Ankaranın Kizilcahamam bölgəsinə səfər təşkil edildi və açıq havada dəsrlərin keçirilməsi metodları əyani olaraq göstərildi.

Qazi Universitetində keçirilmiş seminarlar bütün tədbir iştirakçıları tərəfindən maraqla qarşılandı və yeni təcrübələr qazanılmasına nail olundu.

Bununla yanaşı, Dr. Elza Səmədova Qazi Universiteti, Çankaya Universiteti, Hacettepe Universiteti, Orta Doğu Texniki Universiteti və Ankara Universitetinin prorektorları, təhsil institutları və təhsil fakültələrinin nümayəndələri ilə də məhsuldar görüşlər keçirdi və bu qurumlarla Xəzər Universitetinin Təhsil fakültəsi arasında əməkdaşlıq qurulması, magistratura və doktorantura səviyyəsində ikili ixtisas və ortaq ixtisasartırma proqramlarının həyata keçirilməsi istiqamətində müzakirələr apardı.

Bundan başqa, Dr. Elza Səmədova Ankara səfərində Çankaya Universitinə bağlı "Özəl Arı Okulları" orta məktəbində ERASMUS+ layihəsi çərçivəsində qurulan laboratoriyalarla da tanış oldu və Xəzər Universitetinin "Dünya" məktəbi ilə dostluq əlaqələrinin qurulması və birgə layihələr istiqamətində ilkin müzakirələr apardı.

Görüşlər əsnasında universitetlərin nümayəndələrinə 2018-ci il aprelin 20-si və 21-də Xəzər Universitetində təşkil olunacaq "Qlobal təhsil" adlı I Beynəlxalq Təhsil Simpoziumu haqqında da məlumat verildi, posterlər təqdim olundu.

On 19-24 November, Dr. Elza Semedova, Dean of the School of Education, Dr. Ali Huseynli, Head of the Department of Mathematics, and Ulkar Bayramova, project manager of Development centre, participated in series of seminars in Gazi University of Turkey within ERASMUS+ project named "Development of teaching and learning in universities of Azerbaijan".

Approximately 40 delegates of partner universities from Azerbaijan (Khazar University, Nakhchivan State University, Ganja State University, Sumgayit State University, Baku Slavic University, Azerbaijan University of Languages, Azerbaijan State Pedagogical University, Azerbaijan University) and Europe (University of Debrecen (Hungary), Polytechnic University of Valencia (Spain), University of Applied Sciences BFI Vienna (Austria), Gazi University (Turkey) participated in the seminars.

Within the five-day seminar, the participants gained full information on Gazi University, faculties of the university, organisation of teaching and learning at university, subject laboratories and laboratory experience, new methods of teaching and learning in various lessons, and also participated in various lectures. Moreover, the participants visited Kiziljahamam region of Ankara, where open air geography lessons are organised, and got visually familiar with open air lessons.

The seminars at Gazi University were welcomed by all the participants who gained new experience.

Furthermore, Dr. Elza Semedova had productive meetings with vice-rectors of Gazi University, Chankaya University, Hacettepe University, Middle East Technical University and Ankara University as well as representatives of Institutes of Education and Schools of Education, and discussed some issues such as cooperation and dual qualifications at master and doctoral levels, and joint professional development programs.

Dr. Elza Semedova also visited "Özəl Arı Okulları" high school affiliated with Chanakya University and got familiar with laboratories established within ERASMUS+ project. Dr. Elza Semedova discussed future collaboration between "Dünya" school and "Özəl Arı Okulları" and realisation of joint projects.

In the course of the meetings the delegates of Khazar University gave information about First International Education Symposium named "Global education" to be held at Khazar University 20-21 April, 2018, and handed out posters.



## XƏZƏR UNİVERSİTETİ BMT TƏDBİRİNDƏ

Noyabrın 24-25-də Bakıda "Dünyamızın transformasiyası: Davamlı İnkişaf Məqsədlərinin inteqrasiyası və həyata keçirilməsinin təşviqində elmin rolu" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfrans BMT-nin Qlobal Saziş Layihəsi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası və "Azərsu" ASC-nin dəstəyi ilə təşkil olunmuşdu.

Noyabrın 24-də konfransda fasilə zamanı Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, dosent, pianoçu Zülfiyyə Sadıqova) iştirakçılar üçün konsert vermişdir. Müslüm Maqomayev adına Dövlət Akademik Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova və Bakı Musiqi Akademiyasının tələbəsi Mahir Tağızadə Azərbaycan bəstəkarlarının əsərlərini ifa etmişlər.

Həmin gün konfrans iştirakşıları üçün tanınmış xalça rəssamı, Xəzər Universitetinin müəllimi Afaq Kərimova və gənc rəssam, rəssamlar ittifaqının üzvü Əfşan Əsədovanın yaradıcılıq sərgisi nümayiş etdirilmişdir.

## KHAZAR UNIVERSITY AT THE UNITED NATIONS EVENT

On November 24-25, International scientific conference on "Transformation of our world: the role of science for promotion of integration and realization of Sustainable Development Goals" was held in Baku. The conference was organized with the support of UN Global Compact Project, Azerbaijan Trade Unions Confederation and "Azersu" OJSC.

During the break, on November 24, a concert was performed for the participants by the Chamber Orchestra of Khazar University (art director is Assoc. Prof. Zulfiyya Sadigova, an Honored instructor, pianist, Head of the Department of Music and Fine Arts). Mashati Jabbarova, the instructor of Khazar University and soloist of Azerbaijan State Academic Philharmonic Hall and Mahir Tagizadeh, the student of Baku Music Academy, performed compositions by Azerbaijan composers as well.

On the same day, an exhibition of creative works by Afag Karimova, a well-known carpet artist and the instructor of Khazar University, and by a young artist Afshan Asadova, a member of Union of Artists, was demonstrated for the participants.





## CONFLICT MANAGEMENT TRAINING HELD AT KHAZAR UNIVERSITY

On November 26, "The Chain" Team organized a training session on conflict management at Neftchiler Campus of Khazar University. This training was one of the components of their campaign within its participation in the project "P2P: Facebook Global Digital Challenge". The participants included both students and employees from various local universities and organizations.

The training session started with an introduction game to break the ice among the participants. During the session, various topics such as conflict management and communication approaches; non-violent communication theory developed by Marshall Rosenberg; the hamburger method of constructive criticism; and Thomas Kilmann conflict modes, in particular, were discussed. The participants also had a debate on how these approaches could be implemented in real life situations.

To apply the newly gained knowledge on negotiation and conflict resolution skills, the participants were divided into teams and participated in the Orange Game. According to the rules of the game, there was only one orange for sale and two buyers who would use it for two different purposes. Teams were supposed to come with the best solution for both buyers using conflict resolution and communication techniques.

At the end of the training session, the participants were awarded certificates of participation. A small gift package of the campaign was also presented to each participant.



## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# AZƏRBAYCAN İLƏ ÖZBƏKİSTAN ARASINDA ƏDƏBİ - MƏDƏNİ ƏMƏKDAŞLIĞA DAİR MEMORANDUM İMZALANIB

Dekabrın 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Əzəli dostluq rişələri: Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələri" mövzusunda elmi konfrans keçirilib.

Əvvəlcə iştirakçılar Ədəbiyyat İnstitutunda, eləcə də Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi çərçivəsində Daşkənddə son zamanlar özbək dilində nəşr edilmiş kitabların sərgisi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan-Özbəkistan münasibətlərinin çoxəsrlik tarixindən, iki ölkə arasında qarşılıqlı əməkdaşlığın inkişafından söz açıb, son illərdə mədəni-ədəbi əlaqələrin daha da genişləndirildiyini bildirib.

AMEA-nın Özbəkistan Elmlər Akademiyası ilə əməkdaşlığından danışan akademik İsa Həbibbəyli bugünkü tədbiri çoxəsrlik ənənələrə malik olan Azərbaycan-Özbəkistan əlaqələrinin müstəqillik dövrü mərhələsinin əlamətdar hadisəsi adlandırıb, konfransın işinə uğurlar arzulayıb.

Konfransda çıxış edən Özbəkistan Respublikasının Azərbaycandakı səfiri Şerzod Fayziyev ölkələrimiz arasında əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bildirib, müsəlman ölkələri arasında elm, mədəniyyət sahələri üzrə əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, ölkələrimiz İslam mədəniyyətinin və dünya mədəni-tarixi irsinin mərkəzi sayılır və Türk dünyasının böyük mədəniyyətə sahib xalqlarıdır.

Sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi arasında əməkdaşlığa dair üçtərəfli memorandum imzalanıb. Memorandumda Azərbaycan və Özbəkistanın elm, mədəniyyət müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi, birgə araşdırmaların aparılması, layihələrin reallaşdırılması, elm, ədəbiyyat sahəsində mübadilənin həyata keçirilməsi və s. məsələlər nəzərdə tutulur.

Konfrans çərçivəsində, həmçinin "Əzəli dostluq rişələri" adlı filmin nümayişi olub.

Tədbirdə elmi ictimaiyyətlə yanaşı səfirlik və media nümayəndələri, mədəniyyət işçiləri də iştirak ediblər.



# ƏDƏBİYYAT İNSTİTUTUNDA YEKUN ELMİ ŞURA

Azərbacan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurasının ilin yekunlarının müzakirə olunduğu iclası keçirilib. İclasdan öncə bir il ərzində nəşr olunan kitabların nümayiş olunduğu sərgiyə baxış keçirilib.

İclası giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxışında 2017-ci ilin institut üçün uğurlu keçdiyini, bir sıra önəmli nəticələrin olduğunu bildirib, çoxcildlik ədəbiyyat tarixləri sahəsində görülən işlərin əhəmiyyətli olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, 7 cildlik ədəbiyyat tarixinin 5-ci cildi, 10 cildlik ədəbiyyat tarixinin isə 1-ci cildi ilə bağlı işlər yekunlaşmaq üzrədir və ilin sonuna qədər çapa veriləcək. Eyni zamanda, elmi kadr hazırlığı baxımından da il uğurlu olub. On nəfər institut əməkdaşı elmlər doktorluğu işini bitirib, bəziləri artıq müdafiə edib, digərləri isə müdafiə növbəsini gözləyirlər. Bu, institut tarixində mühüm hadisədir. Akademik İsa Həbibbəyli 2017-ci ili Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu üçün istər elmi nailiyyətlərin əldə edilməsi, istərsə də elmi-təşkilati islahatların həyata keçirilməsi baxımından əlamətdar bir dövr olduğunu vurğulayıb.

Sonra institutun elmi katibi, dosent Aygün Bağırlı ilin əsas göstəricilərinin ifadə olunduğu geniş elmi hesabatı şura üzvlərinə təqdim edib. O qeyd edib ki, ölkə başçısı, Prezident İlham Əliyevin fərman və sərəncamlarının icrası ilə bağlı tapşırıqların yerinə yetirilməsi ilə bağlı işlər görülüb. «Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən təsdiq olunmuş tədbirlər planına uyğun olaraq institutda aprel ayının 7-də "Molla Pənah Vaqif və Azərbaycan realizmi" mövzusunda elmi sessiya keçirilib. Azərbaycan Respublikası Prezidentinin 2017-ci ili "İslam Həmrəyliyi ili" elan etməsi ilə bağlı sərəncamına uyğun tədbirlər planı əsasında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda cari ilin mart ayının 13-də "Azərbaycan ədəbiyyatında İslam həmrəyliyi və tolerantlıq" mövzusunda konfrans keçirilib. Qeyd edib ki, ümumilikdə il ərzində institutda üçü beynəlxalq olmaqla 22 konfrans və tədbir keçirilib. İl ərzində Ədəbiyyat İnstitutu əməkdaşlarının müəllifliyi, tərtibçiliyi və tərcüməsində 49 kitab və monoqrafiya, 18 tərtib, 7 konfrans materialı, 9 bədii, 4 tərcümə olmaqla ümumilikdə 100-ə yaxın kitab işıq üzü görüb. Hələ çapda olan nəşrlərin olmasını nəzərə alsaq, bu il institutun bu sahədəki göstəricisinin keçən illə müqayisədə keyfiyyət və kəmiyyət baxımından xeyli irəli getdiyi nəzərə çarpır. İl ərzində institut əməkdaşlarının müxtəlif elmi jurnal və məcmuələrdə, eləcə də dövri mətbuatda 1180 məqaləsi (o cümlədən, 13-ü impakt faktorlu olmaqla və 120 məqalə xarici ölkələrdə) çap olunub.

Akademik İsa Həbibbəylinin ideya müəllifi və baş elmi məsləhətçisi olduğu institutun rəsmi internet səhifəsi *literature.az*-ın yeni versiyası müasir dizaynda, üç dildə təqdim edilib. Ötən il ərzində institut əməkdaşlarının nəşr edilmiş kitab və məqalələri mütəmadi olaraq saytda yerləşdirilib, müdafiə edilmiş dissertasiyaların avtoreferat bazası davamlı olaraq yenilənib.

Elmi şurada 2017-ci ildəki fəaliyyətinə görə "İlin alimi" mükafatının qaliblərinin adları açıqlanıb.

Sonda AMEA Humanitar Elmlər bölməsinin akademik-katibi, akademik Teymur Kərimli çıxış edərək Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 2017-ci ildəki fəaliyyətinin kifayət qədər uğurlu olduğunu və növbəti ildə institut əməkdaşlarının daha böyük uğurlar qazanacağına əminliyini bildirib.

# ХАЗАР В ЛИЦАХ

*(Начало и продолжение в номерах 361, 362, 363, 364, 367)*

## КОГДА ИДУ Я ВДОЛЬ РОДНЫХ МНЕ СТЕН



Когда иду я вдоль Хазарских стен,
С любовью все таблички я читаю,
События всех прожитых совместно лет
Невольно в памяти моей всплывают...

Вот Айбениз – ханум светлейший уголок,
Она его смиреньем озаряет,
Ни слова дерзского,
ни безразличный взгляд,



Ни раздраженья от усталости безмерной
Себе она не позволяет.

Она наша надёжная «связная»,
Она же ведает всей хронологией пути,
Которого Хазарцы под её присмотром
Успели вместе с ней уверенно пройти.

***

А здесь ханум Саифа и Керим муеллим
Один другого выручая,
В компьютер смотрят, словно в небосвод,



Все цифры по одной на нем считают,
Они уж точно знают,
Что ни одна «звезда»
с орбиты не сойдёт:
Саифа – зоркий «звездочёт»!
И если вдруг заблудится звезда,
Она её легко поймает
И на свою орбиту подтолкнёт...

***

***

А здесь ханум Гатиба восседает,
Добро казны её удел,
Она его надёжно охраняет
От порчи, «сглаза» и потерь,
Её лицо порой напоминает
Мадонны Микеланджело портрет,
Которая про всех всё понимает,
Но никогда не выдаст тайну сотен лет...

***



Руфат, Шахин!
Когда я вижу Вас, стоящими бок о бок,
Проносятся те годы в памяти моей,
Когда Руфат, с улыбкой строгой,
Печатал книги наши в обители своей.
Сейчас, читая твои книги,
Тебя, Руфат, я вижу молодым:
Ты помнишь свой халат тот белый,
И нас вокруг тебя, как стаю голубей?





Шахин, ты видишься мне рыцарем в доспехах
На сером, «в яблоках», коне,
Ты Дон-Кихот без Санчо Панса,
Твои усы - твоё «досье».
Ты вечно занятой «Давид-строитель»,
Ты нам построил всех вмещающий «Палас»,
Люблю смотреть я в круглые окошки,
Как в символы, объединяющие нас.



***

А эта дверь меня магнитом тянет,
Не в силах я мимо неё пройти:
Маиса и Закир здесь «балом правят»,
Здесь книги царствуют,
Буклетки и журналы,
И все писатели и публицисты
Спешат в Хазар за выдачей «регистров»,
Чтоб подтвердить свои права на книги,
Которым наш Закир присвоил
Персональный индекс.
Таких «свидетельств о рожденьи»
Закир – директор выдал целый рой:



Вам не найти ни одного изданья
Без нашего ISBN директора признанья
На то, что книги и статьи
Могут законно в мир войти.

С момента появления Хазара,
Закир его бессменный «кутюрье»:
Хазарские он мысли «одевает»
В научные тома хазарских лет.

Он летописец наших устремлений,
Научных поисков и сбывшихся надежд.
С его подачи наши книги нам кивают,
Мы ласково киваем им в ответ.

Наша Маиса – это солнечная пчёлка
Она порхает над цветами мысли и мечты,
Хазарский «терпкий» мёд она с них собирает
В компьютере его по полочкам
прилежно расставляет,
И сохраняет материал как драгоценный капитал,
Который мы, Хазарцы, накопили,
И в банки с мёдом для сохранности залили.

***

Кто лучше всех в Хазаре знает,
Какой учитель что читает,
Какой учебный материал
Студентов кругозор впитал,
Каковы темы их дискуссий,
Дебатов, презентаций и экскурсий,
Какой учебный материал
Имеет лучший «номинал»?
Надеюсь, все вы догадались,
Что разговор идет о нём,
Неутомимом и серьёзном
Нашем Самире дорогом!

## ЭЛЬЗА ХАНУМ

Влюблённая в родной язык,
Вы сделали его понятным и доступным
Хазаровским студентам разных лет,
Их приобщив к культуре тюрков.

На удивленье быстро и легко,
Освоили они язык азербайджанский,
И с удовольствием используя его,
Их жизнь здесь стала
Увлекательной, прекрасной.

Наши индусы, нигерийцы,
Иранцы, пакистанцы, палестинцы,
Когда учились все они в Хазаре,
Немало чудных уголков
Увидели они в Азербайджане,
И приводили наш народ
В сплошное изумленье:
Кто научил их языку
За столь короткий срок,
Чтоб говорить с таким уменьем?!



Уехав после обучения домой,
Ваши студенты увезли с собой
Язык Азербайджанский,
А это значит, что Ваш труд был не напрасным:
Язык их надолго связал с народом,
Всегда готовым душу широко раскрыть любому,
Кто постучался в дверь с добром,
А не с отравленным мечом,
И не забыть им никогда ни Вас,
Ни всем известного
Азербайджанского гостеприимства.

## РАФИК МУЕЛЛИМ



Художественных образов знаток,
Он содержания и формы «усмиритель»,
Под каждый образ он свой цвет найдёт,
Под каждый текст он свой формат изыщет.

Его художественный вкус
Мировоззренье отражает,
В его работах есть черты,
Что его опыт подтверждают.

Вся его творческая жизнь – это мольберт,
Где краски он смешать умеет,
Чтобы характер образу придать,
Он содержание по образу отмерит.

Его Хазарские этюды
Есть воплощение его идей,
Он из осколков может образ воссоздать,
Он может в образ жизнь вдохнуть опять.

Его рука в момент созданья образа тверда,
И интуиция всегда ему верна,
Преображая жизнь вокруг людей,
Он дарит радость миру взрослых и детей.

Он чётко видит текст
И как его рисунком оживить,
Он чувствует, как детский ум
В рисунке может мысль о мире уловить.

Он понимает, как много значит для детей
журнал «Dünya»,
И как прекрасна их родная школа - их семья.

Он творческих идей носитель,
Концертов, сцен, спектаклей оформитель,
Ему подвластны образы, пейзажи,
Панно, буклеты, вернисажи.

Он опытом творить уполномочен,
В отборе средств созданья образа он точен,
Он полон сил призванию служить,
И в летопись Хазара краски привносить.

## ИЛЬХАМ МУЕЛЛИМ



Ильхам – наш «шоколадный Джо»,
Всегда он с шоколадной плиткой
обходит каждого из нас,
Чтоб скрасить грусть наших усталых глаз,
И разбудить наши улыбки.

Хороший друг, серьёзный человек,
В науке хочет он найти успокоенье,
Должно быть, что-то в жизни у него
Похоже на УФО столпотворенье.

Он тщательно старается постичь
Все тайны нашего земного мирозданья,
Он верит, что придёт пора
Землян и Марсиан свиданья.

Я думаю, он встретит «неземлян»
С огромной шоколадной плиткой
И, съев её, пришельцы ощутят
Прилив любви к землянам «липкий».

И улыбнутся гости из небес
Улыбкою широкой, дружелюбной,
Поймут они, что наш Ильхам
Их проводник в земную быль и спутник.

Ильхам станет их верой в дружбу и любовь,
На их пути земного обитанья,
До них дойдёт, что шоколад Землян,
Есть корень «жизнеобожанья».

## ЭПИЛОГ – ПРЕДСКАЗАНИЕ

Хазар! Наш буйный и родной очаг
Объял нас пламенем своей харизмы,
Где мы, сгорая каждый день до тла,
Встаём из пепла, приходя сюда,
Чтоб вновь и вновь сгореть и возродиться
Во имя дела нашей жизни.

Привычка возрождаться через труд
Объединяет нас перед лицом проблемы,
Которая, как древний эскулап,
Излечивает раны от гангрены.

«Мы за ценой не постоим»,
Когда лавина зависти нависнет
Над нашей пирамидой мысли,
Мы устоим как Сфинкс через века,
Слегка насмешливо взирая свысока
На поколенья пилигримов издалёка,
Улыбкою Джоконды их маня...

Через каких-нибудь сто лет,
С момента нашего «священного хурала»,
Когда мы радостно воскликнем:
«Наконец-то! Ребята, мы опять все вместе!»
Мы план реформ совместно утвердим,
Прыжок с небес осуществим,

И, взявшись за руки, войдём
В Хазарский наш родной «фронтон».

И мы совсем не удивимся,
Увидев наши образа,
Смотрящие со стен нам всем в глаза,
И, сделав им наш реверанс,
Повергнем всех студентов в транс,
Когда поймут они, что мы,
Вернувшись из Созвездия Тельца,
Вновь встали под знамёна Гамлета-творца,
Чтоб подтвердить идею вечной жизни.

Через каких-нибудь пол-сотни лет,
Станет «Dünya» надёжной кузницей умов
И укрепит Хазарский свод
Силой научной мысли.
Настанет час, когда «Dünya» поймёт,
Что родилась её элита в полном смысле.

Хазар - «Dünya»
Как Гамлет – Наиля
Будут навеки вместе,
Поскольку их мечты союз
Счастливою звездой отмечен...

*(конец)*

**Л. М. Гамидова,**
*Старший преподаватель*
*Департамента Английского*
*Языка и Литературы*




## TƏLƏBƏLƏR "DÜNYA" MƏKTƏBİNİN LABORATORİYALARINDAN İSTİFADƏ EDİRLƏR

Noyabrın 23-ü və 30-da Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri "Dünya" məktəbində yerləşən fizika və kimya laboratoriyalarında oldular. Dərs zamanı tələbələr ayrı-ayrı qruplar şəklində laborator işləri yerinə yetirdilər.

Qeyd edək ki, tələbələr müntəzəm şəkildə həm universitetin özündə, həm də "Dünya" məktəbində fəaliyyət göstərən laboratoriyalardan istifadə edir, dərsdə əldə etdikləri nəzəri bilikləri laboratoriyalarda cihazlar vasitəsilə tətbiq edirlər.

## STUDENTS USE LABS AT 'DUNYA' SCHOOL

On November 23 and 30, the students of School of Engineering and Applied Sciences at Khazar University attended the physics and chemistry laboratories of 'Dunya' School. The students in separate groups carried out laboratory works during the class.

Noting that, the students regularly make use of labs at the University and at 'Dunya' School, hence in the laboratories they put into practice the theoretical knowledge which they gain at the classes.








# “QORXULU YUXULAR GÖRƏCƏYİM GÜNÜ BİLİRƏM...”

*2017-ci il dekabrın 1-də “Ədalət” qəzetinin saytında Xəzər Universitetinin əməkdaşı, şair Alik Əlioğlu ilə müsahibə dərc olunmuşdur. Müsahibəni oxucularımıza təqdim edirik.*

*Yuxu həyatın tərs üzüdür. Bizim hər gün rastlaşdığımız insanların, hadisələrin o üzü. Burada zaman yoxdur. Şüurumuzun qaranlıq guşələrinə düşən bir qırıq işıqdır yuxu. O işığın içində tez-tez xatırladığımız, unuda bilmədiyimiz, hər gün düşüncəmizin küçələrində əli cibində veyil-veyil dolaşan adamlar yaşayır. Yuxudakı xatirələr, düşüncələr, əzablar, sevgilər, xəyallar, ümidlər bizim o biri dünyamızın sakinləridir. Yuxu bizi sarsıda da bilər, sevindirə də. Bəzən beynimizin içində eynən çöl boyu yüyürən atlar sayaq insanların xatirələrinin axını olur. Bu kütləvi axını bizə yuxular göstərir, qırıq-qırıq, zəif ssenaridə, montajı olmayan film kimi. Məşhur psixoanalitik Ziqmund Froyd yuxular haqqında "Yuxuların yozumu" kitabını yazmışdır. Froyda görə, yuxular bizim şüurumuzda mövcud olan həyatımızdır.*

*"Yuxu qapısı" rubrikasının bu dəfəki qonağı şair Alik Əlioğludur. Adalet.az müsahibəni təqdim edir.*

**-Froyda görə, yuxu mənasız bir şey deyil, sıxışdırılmış arzuların təhrif olunmuş, pərdələnmiş şəkildə gerçəkləşməsidir. Sizin fikriniz necədir?**

- Mən yuxunun mistikasına inanan adamam. Yuxu mənim üçün çox maraqlı hadisədir. Bəzən real həyatımla yuxularım arasında güclü bağlılıq hiss edirəm. Mənim üçün yuxulamaq ərəfəsi, yəni real həyatdan yuxuya keçid prosesi həmişə daha maraqlı olub. Bax bu zaman kəsiyində gördüyüm yuxular bəzən həyatımda çox ciddi dönüş nöqtəsi ola bilib, bəzən çox ciddi qərarlar qəbul etməyimə təsir göstərib. Bununla bərabər deməliyəm ki, yuxuların hamısı da nəyəsə işarə deyil. Bəzən narahatçılıqdan, bəzən yorğunluqdan, bəzən ağrılardan yuxunu qatmaq mümkündür. İşarəsi olan yuxularla, əhəmiyyətsiz yuxuları ayırd etməyi öyrənmişəm.

**-Yuxularınız həyatınıza necə təsir göstərir, yəni gördüyünüz yuxuya görə planlarınızı qurursunuz?**

- Ola bilsin ki, yuxuda hiss etdiyim hansısa bir işlə bağlı qərar qəbul edim, amma ümumilikdə bütün planlarımı yuxuya görə düzənləmirəm. Mənim mədəmdə ağrılarım var. Bilirəm ki, ağır yemək yediyim gün qorxulu yuxular görəcəyəm. Bunu tibb də təsdiqləyir. Mədə - bağırsaq ağrıları yuxuya təsir göstərir. Ona görə də, mədəm ağrıyarkən gördüyüm pis yuxuları, elə oyanan kimi də unuduram.

**-Yuxudan sonra onun yozumları haqda baş sındırırsız?**

- Qətiyyən. Əgər nəsə hiss edirəmsə, o andaca hiss edirəm. Yox əgər heç nə hiss etmirəmsə, həmin yuxunu əhəmiyyətsiz yuxular qovluğuna atıram. Bəzi adamların mütəmadi səhər kitabı olan "Yuxu yozumları" mənim üçün çox əhəmiyyətsizdir.

**-Yuxuların mistik hadisə olduğuna inanırsınızmı?**

- Mütləq. Yuxunun bir mistikası var. Həyatda bilmədiyimiz çox şeylərin olduğu kimi, yuxunun da adamlara məlum olmayan mistik tərəfləri var. Məsələn, bəzən heç haqqında belə düşünmədiyin, çoxdan unutduğun bir adamı yuxuda görürsən və ya birdən-birə haradansa yadına düşür. Həmin gün həmin adamla rastlaşırsan. Çox qəribədir və bunun özü artıq mistikadır.

**-Gördüyünüz yuxular çin olurmu, ya da əksinə?**

- Heç vaxt elə yuxu görməmişəm ki, sonradan o çin çıxsın. Mənim yuxularım adətən hisslərlə bağlı olur. Çox vaxt konkret nəsə görmürəm, sadəcə yuxuda nəyisə hiss edirəm, sanki mənə kimsə nəyisə təlqin edir. Mənə elə gəlir ki, yuxu meditasiyanın bir

növüdür. Beyin dincəlir, bədən rahatlaşır və sən o əlaqəni qura bilirsən. Əgər oyaqkən də buna çalışsan, mütləq ağlına yuxuyabənzər nələrsə gələcək, nələrsə hiss edəcəksən. Bir əhvalat danışım. Bir dəfə uşaqkən Gürcüstana gedirdik və mənim sənədimdə problem vardı. Anamla atamın narahatlığından hiss etmişdim ki, məsələ ciddidir, mənə görə bizi sərhəddən buraxmaya bilərlər. Avtobusun pəncərəsindən uzandıqca uzanan boşluğa, düzənliyə və səmaya baxırdım. Birdən birə göydən bir enerji aldım, o qədər doğmalıq hiss etdim ki, kövrəldim. Bu enerji məni inandırdı ki, sərhəddə heç bir problem olmayacaq, qeyri-iradi gülümsədim. Sərhədi rahatca keçib getdik... Ona görə də, mənim adətən yuxularım yox, hisslərim çin olur.

**-Həyatınızda gördüyünüz ən yadda qalan yuxu və ən gözəl yuxu hansılardır?**

- Mənim atam və körpə oğlum dünyasını dəyişib. Bir dəfə onların ikisini bir yerdə gördüm. Oğlum atamın qucağında idi. Atam onu əzizləyirdi. Ondan sonra daha oğlumdan nigaran qalmadım, içimdə bir rahatlıq tapdım.

**-Bəzi adamlar yuxuda ağ-qara filmə baxırlar. Bunun səbəbi hələ bilinmir. Amma alimlər onu bildirir ki, insanların 12 faizi ağ-qara yuxu görür. Siz necə düşünürsünüz?**

- Sözün düzü, heç vaxt bu barədə eşitməmişəm. Gördüyüm yuxuların rəngi də yadımda deyil. Mənim fikrimcə, yuxunun heç rəngi olmur axı, yəni heç ağ-qara da olmur...

**-Hansı doğmanızı daha çox yuxuda görürsünüz?**

- Atamı itirəndən sonra, uzun müddət onu yuxuda görmədim. Sonralar isə yuxuda ən çox onu görməyə başladım.

**-Yunan filosofu Heraklın yuxu haqda məşhur bir sözü var: "Oyanıq olan insanlar üçün tək bir dünya vardır. Yuxuda olanların isə hər birinin ayrı bir aləmi vardır, onun içində hey fırlanırlar". Siz necə fikirləşirsiniz?**

- Bəli, yuxu bir az ayrı bir paralel həyata oxşayır. Elə bilirsən ki, ora da başqa yerdir, orada baş verənlər həqiqətən də baş verir. Bəzən o qədər inandırıcı yuxular olur ki, oyandıqdan sonra oyandığına ya sevinirsən, ya kədərlənirsən. Deyilənə görə, ən uzunmüddətli yuxu real həyatda 15 saniyə çəkir, amma bəzən bizə elə gəlir ki, bütün gecəni yuxu görmüşük. Bəlkə də yuxu ilə real həyatda zaman anlayışları fərqlidir və bizim məntiqimizə yaddır. Biz yalnız bildiyimiz məntiqi, coğrafi və fiziki qanunları qəbul edirik, ona görə də, bütün digər məntiqimizdən kənar şeyləri mistika adlandırırıq.

**-Dahi yazıçılardan, rəssamlardan, filosoflardan kimləri yuxunuzda görmüsünüz?**

- Xatırlamıram. Yəqin ki, dahilərdən heç kəsi yuxuda görməmişəm.

**-Sizə görə yuxularımız həqiqətə çatdırır bizi?**

- Bəzi yuxuların doğru işarə verdiyinə inanıram. Yuxuların öz aurası olur. Bunu hiss etmək lazımdır. Yuxunu görərkən xoşbəxtsənsə, deməli bu yaxşı yuxudur. Yuxu yozumlarına inanmıram. Hər kəs öz yuxusunu yalnız özü hiss edə bilər. Peyğəmbərimiz deyirmiş ki, səhər oyanıb pis yuxularınızı adamlara danışmaqla onların əhvalını korlamayın. Çox doğrudur, pis enerjisi olan yuxuları danışdıqca həmin enerjini yaymış, ətrafındakı adamlara ötürmüş olursan.

**Oğuz Ayvaz**

*http://www.adalet.az/w139750/Qorxulu_yuxular_g%C3%B6r%C9%99c%C9%99yim_g%C3%BCn%C3%BC_bilir%C9%99m...-_YUXU_QAPISI/#.WiJtpFVl_cu*

## Khazar University Associate Gave an Interview for 'Adalet' Newspaper

On December 1, 2017, an interview headlined as "I know when I'll have nightmares" and made with Alik Alioghlu, poet and staff member of Khazar University, was published on the webpage of 'Adalet' newspaper.

*The interview is available at the following link: http://www.adalet.az/w139750/Qorxulu_yuxular_görəcəyim_günü_bilirəm..._-_YUXU_QAPISI/#.WiE1I1Vl_IU*

## "XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÇAP OLUNUB




Türkiyənin paytaxtı Ankarada yayımlanan "Bilimsel Eksen" ("Elmi meridian") elmi jurnalının 2017-ci il 20-ci sayında **Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Qardaşxan Əzizxanlının** "XX. Yüzyılın İkinci Yarısında Azerbaycan'da Vatandaşlık Coşkusunda Sosyal İçerik" ("XX əsrin ikinci yarısında Azərbaycan Vətəndaşlıq lirikasında sosial kontent") məqaləsi dərc edilmişdir.

Məqalədə XX əsrin ikinci yarısında Azərbaycan vətəndaşlıq lirikasının sosial məzmunu, əsasən, Məmməd Araz, Söhrab Tahir AzərAzər və Məmməd İsmayılın yaradıcılığı əsasında araşdırılmışdır.

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəşri olan "Filologiya məsələləri" jurnalının 2017-ci ilin noyabrında çıxan 15-ci sayında **Qardaşxan Əzizxanlının** "Çağdaş vətəndaşlıq lirikasında həqiqi vətənpərvərlik və surroqat patriotizm" adlı məqaləsi çap olunmuşdur. Məqalədə çağdaş Azərbaycan poeziyasında şairlərimizin yaradıcılığı əsasında həqiqi vətənpərvərlik duyğuları ilə yazılmış poetik nümunələr, həmçinin mədhiyyə xarakterli bəzi mətnlər nəzərdən keçirilir.

Azərbaycan Milli Elmlər Akademiyasi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşri olan "Ədəbiyyat məcmuəsi" jurnalında (2017, № 3, XXXI cild) Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi **Qardaşxan Əzizxanlının** "XX əsrin ikinci yarısında Azərbaycan vətəndaşlıq lirikasında şair kimliyi" adlı məqaləsi çap olunmuşdur.

Məqalədə şair şəxsiyyətinin yaradıcılığa bilavasitə təsiri elmi şəkildə nəzərdən keçirilir.

***

**Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimovanın** (doktorant) "N.Çomskinin dilə fəlsəfi yanaşması: struktural dilçiliyin tənqidi və dilin apriori olması ideyası" adlı elmi məqaləsi AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filologiya məsələləri" jurnalının 2017-ci il 14-cü sayında çap edilmişdir.

Məqalədə N.Çomskinin dilə münasibətinin əsasını təşkil edən fikirləri, dillərin sintaktik strukturunda universallar mövcudluğu, dilçiliklə bağlı fikirləri araşdırılmışdır.

Məqaləni tam şəkildə aşağıdakı link vasitəsilə oxumaq olar:
*http://www.filologiyameseleleri.net/pdf/2017/n14.pdf*




**Validə Kərimovanın** "Роль иностранных языков как средства общения в современный период" adlı elmi məqaləsi Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" adlı jurnalının Humanitar elmlər seriyasının 5-ci sayında çap edilmişdir.

Məqalədə müasir dövrdə xarici dillərin ünsiyyət vasitəsi olmasından geniş bəhs edilir. Dil, söz və ünsiyyət vasitələrindən, müasir dillərdən və onların hansı məqsədlə işlədilməsindən faktlarla məlumat verilir.

***

**Xəzər Universitetinin immunologiya üzrə dissertantı Şəbnəm Şahgəldiyevanın** həmmüəllif olduğu "The Novel Patient with BLNK Gene Type of Agammaglobulinemia" adlı məqalə (ingilis dilində) Honq-Konqda çap olunan və müxtəlif dünya indekslərinə malik olan "OALib Journal"-ında nəşr olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://www.oalib.com/articles/5291334#.Wh0nBfSno9M*

The article of Khazar University's PhD student has been published in English in Hong Kong.

The paper 'The Novel Patient with BLNK Gene Type of Agammaglobulinemia' co-authored by **Shabnam Shahgaldiyeva, a PhD student in Immunology at Khazar University**, has been published (in English) in 'OALib Journal', which is issued in Hong Kong and has different world indexes.

The paper is available at:

*http://www.oalib.com/articles/5291334#.Wh0nBfSno9M*

***

**Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin əməkdaşı fil.ü.f.d., dosent Elmira Məmmədova-Kekeçin** "Ahmed Yesevi'nin yaşnamesinde "bilge kişi" arketipi" ("Əhməd Yəsəvinin vücudnaməsində müdrik qoca arxetipi"" adlı məqaləsi Türkiyədə çıxan "Milli folklor" jurnalında nəşr olunmuşdur.

"Milli folklor" jurnalı Thompson Reuters, A&HCI, Scopus ve TÜBITAK/ULABİM kimi müxtəlif indekslərdə qeydiyyata alınmışdır.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://www.millifolklor.com/*




Elmira Mammadova-Kekech, a PhD and Associate Professor of the Department of Azerbaijani Language and Literature at Khazar University, published her article entitled "Wise man" archetype ("Wise Man Archetype in Ahmet Yesevi's Vudjudname") in the "National Folklore" Journal in Turkey.

The "National Folklore" Journal is registered in various indexes such as Thompson Reuters, A&HCI, Scopus and TUBITAK/ULABIM.

The article can be accessed through the following link:

*http://www.millifolklor.com/*

***

**Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Şəhriyar Muxtarovun** "The Relationship between Energy Consumption and Economic Growth: Evidence from Azerbaijan" adlı məqaləsi "International Journal of Energy Economics and Policy" jurnalının 2017-ci il 6-cı sayı, 7-ci buraxılışında çap edilmişdir. Sözü gedən jurnal SCOPUS kimi nüfuzli məlumat bazalarında indekslənir.

Məqalədə Azərbaycanda enerji istehlakı və iqtisadi artım arasındakı əlaqə VAR modeli çərçivəsində Toda-Yamamoto səbəbiyyət testi vasitəsilə qiymətləndirilmişdir. Məqalə nəticələri dəyişənlər arasında ikitərəfli səbəbiyyət əlaqəsinin olduğunu ortaya çıxarmışdır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*http://www.econjournals.com/index.php/ijeep/article/view/5644*

An article of School of Economics and Management Staff Member in Scopus Indexed Journal

The research paper "The Relationship between Energy Consumption and Economic Growth: Evidence from Azerbaijan" by **Dr. Shahriyar Mukhtarov, vice dean of the Faculty of Economics and Management** at Khazar University, was published in International Journal of Energy Economics and Policy, No 6, Vol 7, 2017. The journal is indexed by SCOPUS, the prestigious abstract and citation database of peer-reviewed literature.

The study investigates the causal relationship between energy consumption and economic growth in Azerbaijan using annual data covering the period from 1990 to 2015. Toda-Yamamoto causality test framework of vector autoregressive (VAR) model was used to test causal relationship between the variables. The results of this test show that there is bidirectional causality between energy consumption and economic growth.

The paper is available at:

*http://www.econjournals.com/index.php/ijeep/article/view/5644*





# 3 DEKABR – BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ İLƏ ƏLAQƏDAR TƏDBİR







Noyabrın 30-da Xəzər Psixoloji Xidmət Mərkəzi, Əlilliyi olan Tələbələr üçün Mərkəz və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin birgə əməyi ilə Xəzər Universitetində 3 Dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə tədbir keçirildi.

Tədbirdə dövlət təşkilatları, xarici ölkə səfirlikləri, QHT və ictimaiyyətin nümayəndələri iştirak edirdilər. Tədbirin bədii hissəsində 1 saylı Psixiatriya Xəstəxanasının pasiyentlərinin ifasında pantomim səhnəcik təqdim olundu. Əlillər Cəmiyyətinin Mədəni əlaqələr şöbəsinin kiçik rəqqasları da böyük həvəslə tədbirdə iştirak etdilər. Azərbaycanın görkəmli tarzəni, xalq artisti Ramiz Quliyev tədbirin təşkilatçılarına təşəkkür edərək, Azərbaycanda əlilliklə əlaqəli maarifləndirici tədbirlərin əhəmiyyətindən danışdı. Müxtəlif musiqi nömrələri iştirakçılar tərəfindən böyük rəğbətlə qarşılandı. Əlilliyi olan istedadlı insanların əl işlərindən ibarət satış-sərgi də böyük maraq doğurdu.

Tədbirdə Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova Xəzər Universitetinin "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil məktəblərinə inteqrasiyasının əsasının qoyulması" layihəsindən bəhs etdi və universitet nəzdində əlilliyi olan tələbələr üçün qurulan mərkəzin əhəmiyyətini də iştirakçıların nəzərinə çatdırdı.

Tədbir böyük coşqu ilə qarşılanan "Qarabağ" şikəstəsi ilə yekunlaşdı.






## EVENT DEDICATED TO DECEMBER 3 - INTERNATIONAL DAY OF PERSONS WITH DISABILITIES

On November 30, an event dedicated to December 3 - International Day of Persons with *Disabilities* was held at Khazar University, jointly organized by Khazar Psychological Service Centre, Centre for the Students with Disabilities and "International Agency for Disabled People" Public Union.

The event was attended by state organizations, representatives of foreign embassies, non-governmental organizations and community representatives. In the artistic part of the event, a pantomime scene was performed by the patients of the Psychiatric Hospital # 1. Small dancers of the Department of Cultural Relations of the Agency for Disabled People, also took part in the event with great enthusiasm. Ramiz Guliyev, an outstanding tar player of Azerbaijan, thanked the organizers of the event and spoke about the significance of awareness-raising events related to disability in Azerbaijan. Various musical numbers were welcomed by the participants. The great interest of the participants was also raised by the exhibition sales of handicrafts of talented people with disabilities. Melek Kerimova, Head of Khazar Psychological Service Center, spoke about the Khazar University poject "The Establishment of Foundation for the Integration of Disabled People into Higher Educational Institutions of Azerbaijan" and highlighted the importance of the Center for the Students with Disabilities, established at the university. The event ended with 'Karabakh Shikastasi' which was met with great enthusiasm.










## WEEK AT UNIVERSITY OF SZEGED FACULTY OF AGRICULTURE IN HUNGARY

On November 27 - December 1, Gunay Farzaliyeva, the coordinator of International Affairs Office, participated in the PAWER training week within Erasmus+ Programme at the University of Szeged Faculty of Agriculture in Szeged, Hungary.

Khazar University is one of the partner universities in the PAWER (Paving the Way to Interregional Mobility and Ensuring Relevance, Quality and Equity of Access) project coordinated by the University of L'Aquila (Italy). The project aims at promoting and supporting mobility between EU and partner countries by harmonizing the credit allocation and grading system.

The participants of the training week included academic and administrative staff members of partner universities from Georgia, Kazakhstan, Kyrgyzstan, Mongolia, Russia, Tajikistan, and Uzbekistan.

The aim of the training was to discuss important issues associated with mobility of students and staff, including Bologna process, qualifications framework, ECTS, mobility agreements, mobility support, recognition of credits, grade conversion process, mobility policy, and others. The training also aimed at preparing national trainers who will continue disseminating project information by delivering workshops and building capacity in their home countries.

## XƏZƏR UNİVERSİTETİNDƏ KİTAB YARMARKASI TƏŞKİL OLUNDU



Dekabrın 12-13-də Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin 2-ci kurs tələbələri Rəvan İbrahimli və Emil Əliyevin təşəbbüsü ilə "Book Zone" Kitab Evi universitetin foyesində kitab yarmarkası təşkil etdi.

Yarmarkada həm tələbələr, həm də müəllimlər endirimli qiymətlərlə müxtəlif mövzulu kitabları əldə etmək imkanından yararlandılar.



## “KAPİTAL BAZARLARI VASİTƏSİLƏ MALİYYƏLƏŞMƏ VƏ LİSTİNQ” MÖVZUSUNDA TƏLİM

Dekabrın 1-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi Maliyyə Bazarlarında Nəzarət Palatasının Təlim və Maarifləndirmə Mərkəzi ilə birlikdə fakütlənin tələbələri üçün “Kapital bazarları vasitəsilə maliyyələşmə və listinq” mövzusunda təlim keçirdi.

Təlimdə kapital bazarının iştirakçıları və alətləri, investisiya qiymətli kağızları, kapital bazarlarında maliyyələşmə, investisiya xidmətlərinin növləri və emitentlərin Bakı Fond Birjasında listinqinə dair nəzəri və praktiki mövzularda çıxış edən mütəxəssislər tələbələrin çoxsaylı suallarını da cavablandırdılar.

İnteraktivlik və diskussiyalarla zəngin olan tədbirin ən aktiv iştirakçıları Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən sertifikatlarla təltif edildilər.

## TRAINING ON "FINANCING AND LISTING THROUGH CAPITAL MARKETS"

On December 1, the Faculty of Economics and Management, conducted a training session on "Financing and Listing through Capital Markets" for the students of the faculty together with the Training and Education Center of the Financial Markets Control Center. The experts who took part in the workshop covered capital market participants and instruments, investment securities, capital markets financing, types of investment services and the theoretical and practical subjects on issuers of the Baku Stock Exchange listing. The most active participants of the event, which were rich in interactivity and discussion, were awarded certificates by the Chamber of Financial Markets Control.







## "AZƏRBAYCANDA MƏKTƏBDƏN İŞƏ KEÇİDİN TƏSVİRİ" MÖVZUSUNDA SEMİNAR

## WORKSHOP ON MAPPING TRANSITION FROM SCHOOL TO WORK IN AZERBAIJAN

Dekabrın 1-də Xəzər Universiteti Karyera mərkəzinin meneceri vəzifəsini icra edən Səbinə Allahverənova Avropa Təhsil Fondunun (ATF) təşkilatçılığı ilə "Azərbaycanda məktəbdən işə keçidin təsviri" mövzusunda Bakıdakı "Park İnn" otelində keçirilən seminarda iştirak etdi. Tədbirə 20-dən çox təşkilatın nümayəndəsi qatılmışdı.

Seminarda Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin Əməliyyatlar üzrə rəhbəri Jeroen Willems, Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdiri Elnur Süleymanov çıxış etdilər.

ATF-nin milli eksperti İlkin Nəzərov əmək bazarında gənclərin vəziyyəti mövzusuna toxunaraq, işə keçidi dəstəkləyən mövcud tədbirlər barədə məlumat verdi, diqqəti lazımi məlumatlara və statistikaya yönəltdi. Seminar ATF-nin Əmək bazarı və ixtisaslar üzrə baş mütəxəssis Eduarda Castel Branconun çıxışı ilə davam etdi. O, əmək bazarının gələcək inkişafı üçün vacib prioritetləri nəzərə çatdırdı və tövsiyələrini bildirdi.

Seminarın sonunda müzakirələr keçirildi və ATF hesabatının nəticələri barədə fikirlər səsləndirildi.

Qeyd edək ki, seminarın məqsədi gənclərin işə keçidini artırmağın mümkün yollarını müzakirə etmək idi. ATF inkişaf etməkdə olan ölkələrdə təhsil, təlim və əmək bazarı sistemlərinin islahatı və Aİ-nin xarici əlaqələr siyasəti kontekstində insan kapitalının potensialını tətbiq edən Avropa Birliyi təşkilatıdır. İtaliyanın Turin şəhərində yerləşən ATF 1994-cü ildən fəaliyyət göstərir.

On December 1, Sabina Allahveranova, the Acting Manager of Career Center at Khazar University participated in a workshop on "Mapping Youth Transitions from School to Work in Azerbaijan", organized by European Training Foundation (ETF), was conducted in park Inn by Radisson Baku Hotel.

The workshop began with a welcome and introductory speech by Mr. Jeroen Willems, Head of Operations, EU Delegation to Azerbaijan. It was followed by the speech of Mr. Elnur Suleymanov, Head of Employment Policy and Demography Department.

Mr. Ilkin Nazarov, ETF National Expert addressed the case of youth situation in the labour market and gave information about existing measures supporting youth transition to work, by shifting everyone's attention to necessary data and statistics. Later, the workshop continued by the speech of Ms. Eduarda Castel Branco, ETF, Senior Specialist in Labour Market and Qualifications. In her very remarkable speech, she pointed out the objectives of the workshop by identifying important priorities for future policy development and improvement as well as presenting and discussing the major findings, conclusions and recommendations of the current study.

The event lasted for 4 hours and it had a positive impact on the participants. At the end of the workshop, the open discussion was held and reflections were made on the findings of the ETF report. The purpose of the workshop was to discuss possible ways to enhance the youth transition to work.

It should be noted that the European Training Foundation is a European Union agency that helps transition and developing countries harness the potential of their human capital through the reform of education, training and labour market systems, and in the context of the EU's external relations policy. Based in Turin, Italy, the ETF has been operating since 1994.






## "BP YAY TƏCRÜBƏSİ - 2018" PROQRAMININ TƏQDİMATI

## A PRESENTATION OF "BP SUMMER EXPERIENCE - 2018"

Dekabrın 1-də BP-nin işə qəbul üzrə məsləhətçisi Mehriban Şıxzamanova və qazma mühəndisi Fərid Hüseynov Xəzər Universitetində tələbələr üçün "BP yay təcrübəsi-2018" proqramının təqdimatını keçirdilər.

Proqram barədə məlumat verən Mehriban Şıxzamanova bildirdi ki, ixtisası vakant yerlərə uyğun gələn, Azərbaycan vətəndaşı olan və 2019-cu ildə məzun olacaq hər bir tələbə proqramda iştirak üçün sənəd təqdim edə bilər. Sənədləri uyğun hesab olunan hər bir tələbə 3 mərhələli qəbul imtahanlarında iştirak etdikdən sonra nəticəsi müvəffəq olarsa, iyunun 2-dən sentyabrın 15-dək işə qəbul ediləcək. Fərid Hüseynov tələbə olarkən proqrama necə qoşulduğu və nə qazandığı barədə tələbələrə motivasiya xarakterli məlumat verdi.

BP-nin əməkdaşları sonda tələbələrin suallarını cavablandırdılar.

BP recruitment consultant Mehriban Shikhzamanova and a drilling engineer Farid Huseynov made a presentation of "BP summer experience-2018" for students at Khazar University on 1st of December.

Mehriban Shikhzamanova noted that all the students with relevant qualifications, who are the citizens of Azerbaijan and will graduate in 2019, can apply for this program. Students with appropriate documentation will go through 3-stage admission exam. Successful students will be employed from 2nd of June until 15th of September. A drilling engineer Farid Huseynov gave a motivational talk about his experience and achievements in this program.

BP employees answered the students' questions at the end of the presentation.





## DEPARTAMENTİN MÜDİRİ "TƏMİZ ŞƏHƏR" ASC - NİN VƏ DÜNYA BANKININ ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞDÜ

Dekabrın 4-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov "Təmiz Şəhər" ASC-nin əməkdaşları Etibar Abbasov, Səbuhi Mehdizadə, Sabit Zeyniyev, Dünya Bankının əməkdaşı Gülana Hacıyeva ilə görüşmüş və Xocasən gölünün su balansı problemlərini müzakirə etmişdir.

## HEAD OF GEOGRAPHY AND ENVIRONMENT DEPARTMENT MET WITH STAFF MEMBERS OF ASC 'TEMIZ SHEHER' AND WORLD BANK

On December 4, Rovshan Abbasov, Head of the Department of Geography and Environment met with staff members of ASC 'Temiz Sheher' Etibar Abbasov, Sabuhi Mehdizada, Sabit Zeyniyev and World Bank representative Gulana Haciyeva. Within the framework of this meeting water balance issues in Khocasan Lake were discussed.

## XƏZƏR UNİVERSİTETİNDƏ YENİ FİLMİN NÜMAYİŞİ

Dekabrın 13-də Xəzər Universitetində Meksikanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə yeni çəkilmiş filmin nümayişinə həsr edilmiş tədbiri universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli açdı.

Meksika səfirliyinin Konsulluq, Ticarət və İqtisadi Əlaqələr üzrə İnzibati nümayəndəsi Kamran Mərdanov Meksika səfiri adından salondakıları salamladı və tələbələrə komediya janrında çəkilmiş " Biz zadəganlarıq" adlı film haqqında qısa məlumat verdi. Sonda o, filmin nümayiş etdilməsində göstərdiyi dəstəyə görə universitet rəhbərliyinə təşəkkürünü bildirdi.

"Mərmər" salonda nümayiş etdirilən filmi universitetin Humanitar və sosial elmlər fakültəsinin və Təhsil fakültəsinin tələbələri maraqla izlədilər.

## A NEW FILM WAS DEMONSTRATED AT KHAZAR UNIVERSITY

The event, conducted with the demonstration of a new film, organized by the Mexican Embassy in Azerbaijan, on 13 December, at Khazar University was opened by the Director of Public Relations and Media of the University Alovsat Emirbeyli.

The Administrative representative on Trade and Economic Relations of the Embassy Kamran Mardanov welcomed the audience in the hall on behalf of the Mexican Ambassador and gave the students a brief information about the movie "We are Nobles" shot in the comedy genre.

At the end, he thanked the University Administration for his support on giving the opportunity for demonstrating the film.The film, demonstrated in the "Marble Hall" of the University, was watched with great interest by the students of the faculty of Humanities and Social Sciences and The faculty of Education.






## "XOCASƏN GÖLÜNÜN SU BALANSI" MÖVZUSUNDA SEMİNAR

Dekabrın 6-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə "Xocasən gölünün su balansı" mövzusunda seminar keçirildi. Seminarda "Təmiz Şəhər" ASC-dən Sabit Zeyniyev; Milli Elmlər Akademiyasının əməkdaşları – Rövşən Kərimov, Məhəmməd Abduyev, Elnur Səfərov; Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Asif Verdiyev; "Azərsu" ASC-dən Rəşail İsmayılov və Vüsal Poladov; SOCAR-dan Tural Məhərrəmov və Ramin Hüseynli; "Caspian Geomatics" şirkətindən Elvin Alıyev; Milli Hidrometeorologiya Departamentindən Vasif Yəhyayev iştirak edirdilər.

Sonda Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov qonaqların suallarını cavablandırdı.













## SUMQAYIT TEXNOLOGİYALAR PARKININ MÜTƏXƏSSİSLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Noyabrın 29-da Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllim-tələbə heyəti ilə Sumqayıt Texnologiyalar Parkının (STP) mütəxəssisləri arasında görüş keçirildi. Görüşdə tələbələrə müəssisə və STP-də təcrübə, karyera imkanları haqqında ətraflı məlumat verildi. Görüşün sonunda STP-nin mütəxəssisləri tələbələrin suallarını cavablandırdılar.

## EXPERTS FROM SUMGAIT TECHNOLOGIES PARK AT KHAZAR UNIVERSITY

On November 29, a meeting was held between the faculty and students of School of Engineering and Applied Sciences and specialists from Sumgait Technologies Park. During the meeting, the students were given detailed information about the experience and career opportunities in the enterprise and Sumgait Technologies Park. At the end of the meeting, the specialists replied to the students' questions.

## "XƏZƏR"İN ƏMƏKDAŞI TÜRKİYƏDƏ SİMPOZİUMDA İŞTİRAK ETDİ

Dekabrın 1-dən 3-dək Türkiyənin Afyon şəhərində Türk Tarix Qurumu, Afyon Qocatəpə Universiteti, Nəcməddin Ərbakan Universiteti və İslam Tarixçiləri Dərnəyinin birgə təşkilatçılığı ilə "Uluslararası Orta Anadolu və Aralıq dənizi Bəylikləri tarixi, kültürü ve mədəniyyəti simpoziumu-IV, Sahib Ataoğulları ve Turqutoğulları" adlı beynəlxalq simpozium keçirildi.

Azərbaycan, Türkiyə, Türkmənistan, Misir və digər ölkələrdən olan iştirakçılar arasında Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin dosenti və koordinatoru, fəlsəfə doktoru Zivər Hüseynli-Baylan da vardı. Z.Hüseynli-Baylan "Turqutoğulları və Səfəvi əlaqələrinə dair araşdırma (farsca qaynaqlar ışığında)" adlı məruzə ilə çıxış etdi. O, habelə simpoziumun son günündə yekun və dəyərləndirmə bölümündə də çıxış etdi, simpoziumun gedişatı haqqında fikilərini bildirdi. Proqramın sonunda iştirakçılara sertifikat təqdim olundu.







## PROMAX TRAINING COURSE WAS HELD AT KHAZAR UNIVERSITY

On December 6th, Khazar University launched ProMax software training course with collaboration of the Bryan Research & Engineering (BR&E) Company. The training duration was 3 days from December 6th to 8th and 30 attendees from Khazar University, SOCAR and Encotech companies participated in this training.

This training course was mainly about designing and optimizing gas processing, refining, chemical facilities and petroleum production units. The attendees were trained how to simulate some parts of refinery and petroleum production units including designing heat exchangers, acid gas removal systems, sulfur recovery units and designing of separators.

At the end of the training all attendees received software training certificates signed by Bryan Research & Engineering Company. Any further information in regards to this Company and ProMax software could be obtained by visiting the following link:

*https://www.bre.com/Default.aspx*

## "XƏZƏR"İN MÜƏLLİMİ MACARISTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ TƏDBİRDƏ

Dekabrın 12-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, t.ü.f.d Təranə İsayeva AMEA-nın Mərkəzi Kitabxanasında Macarıstanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə görkəmli iqtisadçı, yazıçı və siyasət nəzəriyyəçisi İştvan Seçeniyə həsr olunmuş tədbirdə iştirak etdi.

Tədbirdə Macarıstan Elmlər Akademiyasının professoru Zolton Fonagy, Macarıstanın Azərbaycandakı səfiri Viktor Szederkenyi və Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev çıxış edərək, İştvan Seçeninin çoxşaxəli fəaliyyətindən, iki ölkə arasındakı əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışdılar.

## "KHAZAR" LECTURER AT THE EVENT ORGANIZED BY THE EMBASSY OF HUNGARY IN AZERBAIJAN

On 4 December, PhD in History Tarana Isayeva, a lecturer of History and Archeology Department of Khazar University attended the event dedicated to István Széchenyi, a prominent economist, writer and political theorist. The event was organized by the Embassy of Hungary in Azerbaijan at the Central Library of ANAS.

Professor of National Academy of Sciences of Hungary Zoltán Fónagy, Ambassador of Hungary to Azerbaijan Viktor Szederkényi and Ambassador of Azerbaijan to Hungary Vilayet Guliyev delivered speeches on multifaceted activity of István Széchenyi, works done to develop bilateral relations between two countries.





## EiLink WELCOME DAY

On December 12, an event entitled *"eiLink Welcome Day"* was held at Khazar University, Marble Hall. The event was dedicated to sharing the recent and emerging scientific projects at eiLink Research & Development Center at Khazar University. The event was attended by the instructors and students of School of Engineering and Applied Sciences and School of Economics and Management. Shahriyar Alkhasli, Izat Shahsanov and Vafa Ahmadzade, the PhD researchers of eiLink, delivered presentations at the event.





## MÜƏLLİM VƏ TƏLƏBƏLƏR SUMQAYIT TEXNOLOGİYALAR PARKINDA OLDULAR

Dekabrın 14-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllim və tələbələri Sumqayıt Texnologiyalar Parkında (STP) oldular.

Tədbirin birinci hissəsində STP-nin mütəxəssislərinin təqdimatları oldu. Sonra isə tələbə və müəllimlər Polimer Məmulatlar, Elektrik Avadanlıqları, Metal Konstruksiyalar, Qaynar Sinkləmə zavodlarında oldular. Zavodların rəhbər və mütəxəssisləri tələbələrə ordakı iş prossesi, emal edilən məhsullar haqqında geniş məlumat verdilər.

## TEACHERS AND STUDENTS VISITED SUMGAIT TECHNOLOGIES PARK

On December 14, teachers and students of the Faculty of Engineering and Applied Science at Khazar University explored the Sumgait Technologies Park (STP).

The first part of the event consisted of STP experts presentations. Then, students and teachers visited Factories of Polymeric Products, Electrical Equipment, Metal Constructions and Hot Galvanizing plant. The managers and specialists of the factories gave the students an extensive information about the work process and the products processed in these factories.



## KPMG ŞİRKƏTİ İMTAHAN KEÇİRDİ

Dekabrın 14-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü və KPMG şirkətinin nümayəndəsi Aydan Bədəlovanın iştirakı ilə KPMG-də təcrübə proqramına qatılmaq imkanı qazanmaqdan ötrü Xəzər Universitetinin İqdisadiyyat və menecment fakültəsinin tələbələri üçün imtahan təşkil olundu.

## KPMG CONDUCTED EXAM

On 14th December, by the initiative of Career Center of Khazar University, an exam was coordinated for the students of School of Economics and Management to stand a chance of winning an internship at KPMG. The exam was held in the presence of the company's representative Aydan Badalova.

## COORDİNATOR OF THE CENTER FOR STUDENTS WITH DISABILITIES ATTENDED A CONFERNCE

Rima Mammadova, coordinator of the Center for Students with Disabilities of Khazar University attended a conference entitled "Enhancing Employability Skills for People with Disabilities" on December 19.

The Conference was organized by British Council Azerbaijan, Bakcell LLC and British Embassy in Azerbaijan. The main objective of the conference was to bring business companies together and present best practices in business world in the area of employment prospects for people with disabilities.

UK expertise in employing people with disabilities was presented by Mark Gray, specialist working in this specific area, as well as supporting people with disabilities with employment opportunities





# FƏLSƏFİ VƏ PSİXOLOJİ PROBLEMLƏR: YARADICLIQ VƏ QABİLİYYƏTLƏR

**Eldar Şahgəldiyev**

*Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər şöbəsinin müdiri, fəlsəfə doktoru, dosent*

Bacarıq və digər şəxsi keyfiyyətlər insanlarda əsasən fərqlidir və hətta bu fərqin ölçülə bilinməsi də qədimdən insanların maraq dairəsindədir. Buna dair elmi araşdırmalar keçən əsrin əvvəllərindən başlanmış və bir sıra əhəmiyyətli konsepsiyalar irəli sürülmüşdür. Lakin bir məsələ həmişə olduğu kimi qalmışdır: insanların yaradıcılığı onların intellekt və zəka səviyyəsi, koqnitiv şüuru ilə daim inteqrativ əlaqəlidir. Hələ K.Marks və F.Engelsin vaxtilə apardıqları elmi araşdırmalarda da insan yaradıcılığının inkişaf etdirilməsində əməyin və birgəyaşayışın zəruri etdiyi praktik tələbatlar siseteminin əhəmiyyəti qeyd olunmuşdur. Belə ki, nə əvvəl, nə də sonra, sanki bir-birini tamamlayan və birgə meydana gələrək paralel inkişaf edən insan intellekti və ya zəkası daim onu labüd edən qarşılıqlı münasibətlər sistemi ilə, toplum icma münasibətləri ilə sıx əlaqə və vəhdət təşkil edir. Bu, min illər bundan öncə də belə olmuş və gələcəkdə də belə olacaqdır. Bu əlaqə və vəhdəti zəruri edən əsas amil isə insnların bir-biri ilə qurduğu əmək münasibətlərinin bazasında fomalaşmışdır. Buna görə də, yaradıcılıq anlayışını daha yaxşı və daha düzgün dərk etmək üçün yaradıcılıq və zəka haqqındakı görüşləri, qısaca da olsa, nəzərdən keçirməyimiz yerinə düşərdi.

Yaradıcılıq yalnız elm və incəsənətdə mövcud deyildir (MacKinnon -1962, Torrance-1971, Feist və Gorman, Sternberq və Lubart 1996). O, həm də gündəlik problemlərin həlli üçün mühüm əhəmiyyət kəsb edir (Wallas 1926, Cropley 1990, Mumford və başqaları 1991, Runco 1994.). Latınca "*creō*, olan bu söz - ingiliscə "*creativity*"-"*yaratmaq*" və ya Azərbaycanca - "*düzəltmək*" mənalarını verən "yaradıcılıq" insanın sosial-psixoloji və ontoloji strukturunda xüsusi mahiyyət daşıyır.

Psixoloqların zəka və intellekt haqqında verdikləri tərifləri isə üç qrupa bölmək olar: tərbiyə və təhsil anlamında (təhsil sahəsində), analitik anlamda (təhlil və tərkib), funksional anlamda (gündəlik mövcudluq). Filosofların yanaşmasında (istər koqnisiya - dərketmə, istərsə də Avropanın adlandırdığı epistemologia, yəni idrak haqqında elm) koqnitiv şüur xarici aləmin insan beynindəki real obrazlarla inikas olunması və bu inikasın emal prosesi hesab edilir. Əlbəttə, şüur və koqnitiv dərketmə ayrı-ayrı anlayışlar olsa da, onların ehtiva etdiyi ontoloji xüsusiyyət insan beyninin funksiyaları ilə sıx bağlıdır. Pedaqoji psixoloqların fikrincə, zəka öyrənmə bacarığı və təhsilin inkişafı ilə sıx bağlı olduğundan, o həm də təhsil bacarığı sayılır.

İntellekti analitik anlamda götürən alimlər hesab edirlər ki, zəka təcridi təfəkkürə malik olmaq, problemin həllini bacarmaq və yeni vəziyyətlə uyğunlaşma bacarığıdır. İntellektin ən yaxşı analitik tərifini Amerika psixoloqu D.Veksler vermişdir: "intellekt ağıl, düşüncə, məntiqi iş və effektiv davranış deməkdir". Funksional tərifə gəldikdə isə, A.Binenin dediyi kimi: "zəka müxtəlif test (sınaq) vasitələri ilə ölçülə bilən bir şeydir". Franses Dalton (1883) insanlarda fərdi fərqləri öyrənib müqayisə edən ilk alimlərdən biridir. O inanırdı ki, intellekt bacarığı ilə hissi seçim arasında əlaqə vardır. C.M.Kettel də Dalton kimi fərdi fərqləri ölçməyə başladı və ilk dəfə olaraq 1890-cı ildə "psixotestlərdən" istifadə etdi. A.Bine və Viktor Henri 1985-ci ildə Dalton və Kettelin işlərini tənqid etdilər. Onlar Fransada bir məqalə çap etdirərək bildirdilər ki, hissi seçim ilə Dalton və Kettelin nəzərdə tutduqları hərəkət bacarıqları və eləcə də intellektin yük-

sək bacarıqları arasında bağlılıq yoxdur. Buna görə də, zəkanı yalnız yaddaş, diqqət, dərketmə və analizetmə bacarıqlarının müqayisəsi ilə ölçmək olar.

Robert J. Sternberq (ABŞ-Kembric Universiteti) özünün "Thiking styels" (1997, İ hissə, səh.60) adlı kitabında qeyd edir ki, intellektin aşağıdakı növləri mövcuddur: qlobal, lokal, daxili, liberal və konservativ. Alimin fikrincə, onun uzun illərdən bəri müxtəlif yaş qrupları arasında apardığı təcrübə onu göstərmişdir ki, yaradıçılıq və müdriklik arasında mənfi korrelyasiya mövcuddur (səh.6). Belə ki, yaradıcı hesab edilən davranışlar heç də həmişə müdrik nəticə hesab edilməmişdir və ya əksinə; yəni, müxtəlif institutsional təşkilatlar müxtəlif dəyərləri fərqli qiymətləndərə bilər və hətta burada ciddi əksliklər də mövcud ola bilər. Lakin məhz həmin dəyərlər sistemindən fərqli, deviativ davranışlar, digərləri üçün norma hesab olunsa belə, mövcud institutsional qaydaları pozduğu və ya ona zidd olduğu üçün şəxslər digər qurum tərəfindən cəzalandırıla bilər. Beləliklə, Sternberq intellekti araşdırarkən məlumatlandırmadan istifadə edir, beyin quruluşunun əvəzinə isə intellekt funksiyasını, intellekt aksiyasını irəli sürür (məlumatlandırma, planlaşdırma və nəzarət, təhliletmə). O, ənənəvi test əvəzinə öyrənmə, düşünmə, yaddaş və həlletmə qabiliyyətləri haqqında əldə edilmiş laboratoriya nəticələrindən istifadə edir.

Binet, Simon (1916) və Kettel testlərin insan yaradıclığına təsiri və ya testlər vasitəsi ilə intellektin səviyyəsinin aşkar edilməsi ilə də məşğul olmuşlar. Bu gün bizim İQ testləri kimi tanıdığımız tapşırıqlar sistemi Binet sistemindən o qədər də fərqlənmir. Thurston və Thurston (1941) 7 növ əqli qabiliyyətin mövcud olmasını qeyd etmişlər:

1. Verbal komprehensiya (dərketmə) - məsələn, lüğət və oxu qabiliyyətləri;
2. Verbal tezlik - məsələn, qısa vaxtda daha çox hansısa hərflə başlayan sözləri tapmaq;
3. Say- sadə hesab və arifmetika;
4. Yaddaş - soz, rəqəm və ya simvolların yadda saxlanılması;
5. Anlama (dərketmə-perseptual) tezliyi - rəqəm və ya simvolların tez dərk edilməsi və qavranması;
6. İnduktiv təhlil - umumidən spesifikə gedən yolun dərk edilməsi;
7. Məkan vizualizasiyası - yaddaşı, şəkil, model və ya fiqurları rotasiya etməklə (yerlərini dəyişməklə bütöv kontekstə çatma. Məsələn, "KUBİK-RUBİK").

Digər mühüm məsələ müşahidə qabiliyyətinin insan yaradıcılığı üçün çox böyük önəm kəsb etməsidir. Odur ki, psixoloqlar apardıqları müşahidələrdə hər kiçik addımı belə sənədləşdirməyə üstünlük verirlər. Məsələn, Amsterdam Universitetinin tədqiqatçısı Matthijs Baasın insan aktiviliyinin müxtəlif aspektərinin müşahidə qabiliyyətləri ilə necə əlaqədar olmasına dair tədqiqatı bu baxımdan yaxşı nümunədir. Alim belə nəticəyə gəlmişdir ki, məlumatlı diqqətcillik, təsviretmə bacarıqları birbaşa insan yaradıcılığı ilə bağlıdır. Kreativ düşüncə ilə (onlar bunu AWA-ingiliscə "awareness"- məlumatlı olmaq adlandırırdılar) tələbələrin ümumi yaradıcılığı, şəxsiyyəti və diqqətcilliyi arasındakı mühüm qarşılıqlı əlaqənin olub-olmamasını onlar apardıqları psixoloji testlərlə müəyyən etməyə müvəffəq olmuşlar. Test göstərmişdir ki, diqqət və məlumatlılıq baxımından daha çox xal əldə etmiş tələbələr orijinal (yaradıcı) ideyaların irəli sürülməsində əvvəlkilərdən geri qalırlar. Baas və onun əməkdaşları belə bir nəticəyə gəlmişlər ki, hələ sadəcə diqqətcil olmaq (daxili təhlillər aparmadan bu vəziyyəti onlar AWJ - "accepting without judgment" – mühakimə etmədən qəbuletmə adlandırdılar) yaradıcı olmaq deyildir. Şagirdlərə 2 dəqiqə vaxt müddətində onlara verilmiş konserv qutusu və kəndir haqda yaradıcı fikirlərini söyləmək lazım gələndə, təcrübə göstərmişdir ki, çox güclü müşahidə qabiliyyətləri çox zəngin yaradıcılıq qabilləyitlərinə təsir edə bildiyi halda, deskriptiv ideyalar və AWJ orijinal və yaradıcı ideyaların yaranmasına müsbət təsir edə bilməmişdir.

Müxtəlif vaxtlarda insan yaradıcılığına dair aparılmış tədqiqatlar fərqli paralellər aparmaqla müxtəlif nəticələrə gəlmişlər. Bu təcrübələr əsasən yaradıcılıq və təxəyyül, motivasiya və insan yaradıcılığı, rifah və yaradıcılıq, insan yaradıclığının yüksəldilməsi yolları və sair kimi konseptual məsələlərdə cəmiyyətin inkişaf etdirilməsində mühüm rol oynamışdır. Bu baxımdan innovativ düşüncə və təxəyyülü insanların yaradıcılıq imkanları ilə birləşdirmək səyləri də xeyli aktual olaraq qalır. Bu sahənin müasir tədqiqatçılarından sayılan Simone M. Ritter və Nel Mostert (Enhancement of Creative Thinking Skills Using a Cognitive-Based Creativity Trainingş September 2017, Volume 1, Issue 3, pp 243–253) "Koqnitiv yaradıcılığın gücləndirilməsi" adlı jurnalda öz tədqiqatlarının nəticəsi olaraq qeyd etmişlər ki, yaradıcı zəka bu gün mürəkkəb və tezdəyişən dünyanın işlərindən baş çıxarmaq üçün hədsiz əhəmiyyətə və imkanlara malikdir. Odur ki, müəlliflərin fikrincə, tələbələrlə mütəmadi olaraq yaradıcılıq təmrinlərinin aparılması vacibdir.

Terstoun 1938-ci ildə Spirmenin nəzəriyyəsindən tam fərqli bir nəzəriyyə irəli sürdü. Onun fikrincə, intellekt aşağıdakı 7 müstəqil amildən iba-

rətdir: nitq bacarığı, səlis danışma bacarığı, saymaq bacarığı, dərketmə bacarığı, analiz və nəticə çıxarma bacarığı, yaddaş. S.Bert faktik analiz metodunu təşkil etdikdən sonra digər psixoloqlar bu metoddan psixometriyada istifadə etdilər. Misal üçün, Quilford həmin metoddan istifadə edərək, ağıl quruluşunu öyrənməyə başladı və bu haqda üç yönlü bir meyar irəli sürdü: proseslər yönü beyin əməliyyatlarını, mərifət, yaddaş, uyğunlaşdırıcı təfəkkür, çarpazlaşdırıcı təfəkkür və qiymətləndirməni ehtiva edir. Məzmun yönü beyin əməliyyatının məlumat bazası: baxışla əldə edilən məlumat, qulaqla əldə edilən məlumat, məlumatın təzahür forması, mənalandırma və davranış məlumatlarını ehtiva edir. Nəhayət, hasilat yönü: məlumatlandırma və sınama formasıdır ki, birlikləri, sinifləri, əlaqələri, sistemləri, əvəzetmələri və istiqamətləri ehtiva edir.

Beləliklə, Quilfordun meyarı 150 növ zəkanı ehtiva edir (5*5*6=150). Onun ən mühüm nailiyyəti o dövrə kimi diqqətdən yayınan çarpazlaşdırıcı təfəkkür məhfumunu irəli sürməyidir. O, bu amili təqdim etməklə təhlil, yaradıcılıq, tənqidi düşüncənin öyrənilməsinə və məsələnin həllinə zəmin yaratdı.

R.Kettel belə bir görüş irəli sürdü ki, bu amil axıcı və büllurlaşmış amillərdən ibarətdir. Onun fikrincə, axıcı zəka təcridi əlaqələrin dərki və analizi bacarığıdır. Büllurlaşmış intellekt isə öyrənmə proseslərində axıcı zəkanın fəaliyyəti nəticəsində inkişaf edir. O, faktik analiz metodundan istifadə edərək iki növ zəkanın, axıcı və büllurlaşmış intellektlərin hər biri üçün bir sıra amillər təklif etmişdir.

Bəzi nəzəriyyəylərə əsasən (Terstoun, Kettel və Quilford, Vernon) intellekt bütöv bir kompleksdir, lakin eyni halda bir sıra qrup və fərdi bacarıqlardan ibarətdir. Bu piramidin başında (a) ümumi amili yerləşir və aşağı səviyyədə olan bütün bacarıqları birləşdirir və bütün intellekt sınaqlarında iştirak edir. Bu ümumi amil iki əsas amil qruplarına bölünür: nitq-təlim və hərəkət (praktika). Həmin əsas qrupların hər biri öz növbəsində neçə budaq qrup amillərinə - nitq, say, yaradıcılıq və ... bacarıqlar kimi amillərə bölünür. Nəhayət, budaq amillərin özü daha kiçik, yaxud özəl amillərə bölünür.

1970-ci illərin son illəri və 1980-ci onillikdə dərketmənin tərəfdarı olan psixoloqlar məzmun və quruluş deyil, zehni bacarığı, zehni proseslər aksiyasını diqqət mərkəzinə aldılar. Misal üçün, Piaje də uşaqların beyin inkişafının müxtəlif mərhələlərini araşdırıb öyrənərkən testin cavabına deyil, cavabın keyfiyyətinə və səbəbinə diqqət yetirirdi. Mərifət və məlumatlandırma psixologiyasında intellektın öyrənmə, düşünmə, həlletmə bacarıqları və digər mərifət prosesləri ilə əlaqəsi öyrənilir. Sternberq deyir: "intellekt təhsil və həyat problemlərinin həllində istifadə edilən düşünmə və öyrənmə bacarıqlarından ibarətdir (Eyken, 1985, s.219).

Vygotsky, Feurstein nəzəriyyəsi (1978) vaxtilə "assited learning" adlı qabiliyyətlərin inkişaf etdirilməsindən danışarkən, valideyinlərin rolunu qeyd etmişdir. Onlar bioloji yetişmə və intellektual qabiliyyətlərin inkişafını tədqiq edərək belə nəticəyə gəlmişlər ki, burada əsas məsələ "bacarıqların internalizasiyası", yəni mənimsənilməsidir. Onların fikrincə, müəyyən bacarıqlar yalnız bu prosesdən keçdikdən sonra şəxsi qabiliyyətlərə çevrilə bilirlər. Bu bacarıqlar koqnitiv - komponent yanaşmaların bir təcəssümü idilər. Vygotsky insanın inkişafını bir neçə səviyyəyə bölmüşdür və birinci səviyyəni uşaqların hazırlığının aktual inkişaf zonası adlandırmışdı və buraya sərbəst olaraq yerinə yetirilən intellektual bacarıq və yaradıcı qabiliyyətləri ehtiva edən tapşırıqlar sistemini daxil etmişdir. İkinci səviyyə isə yaxın inkişaf zonası (zone of proximal development) adlanırdı və buraya müstəqilliyə söykənən tapşırıqlar deyil, yaşlıların müəyyən köməkliyi ilə yerinə yetirilən tapşırıqlar aid edilirdi və bu tip tapşırıqları birinci səviyyədən gələn tapşırıqlarla əlaqələndirir və iyerarxiyada təsvir edirdi. Göründüyü kimi, dünya psixoloqları tərəfindən təqdir olunan bu sistem əsasən təlim yaradıcılıqlarına əsaslanmışdı.

Fəlsəfi təlimlərdə bacarıq və qabiliyyətlər tarixi fenomen hesab edilir və insan fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Onların evolyusiya prosesi çox mürəkkəb tarixi proseslərin nəticəsidir. Məsələn, nitq bacarıqlarının meydana gəlməsində bioloji amillərlə bərabər sosial amillər də rol oynamışdır. Belə ki, sürünün üzvlərindən birinə informasiyanın ötürülməsinin praktik zərurəti, insan qırtlağının modulyasiyaya uğraması və nəticədə ayrı-ayrı səslər əvəzinə daha mükəmməl nitq vahidlərinin işlədilməsi və sair insan zəkasının nitqin yaranması tarixi ilə əlaqə və vəhdət təşkil etməsi üçün mühüm sübutdur. Həm də, onlar arasındakı demarkasiya xətlərini aydınlaşdırmaq xeyli çətin bir məsələdir. Bu proseslərdə iştirak edən psixoloji amilləri də nəzərdən qaçırmaq olmaz. Bunlara imitasiyalar, təqlidçilik, psixoloji bənzəmələr, əhvallar və sair də yardım etmişdir.

ABŞ-da çox məşhur olan Hovard Earl Qardner (1989) analiz, intellekt, məntiq və biliyin eyni mənada olmadığı fikrinə inanaraq, zəka haqqında yeni bir görüş irəli sürdü. O qeyd etmişdir ki, uşaqların dünyanı dərk etməsi ona görə vacib deyildir ki, bu dünya cox cazibədardır və insan zəkasının onu qavramasında maraqları vardır. Bu ona görə vacibdir ki, insan öz mövqeyi (*yaradıcılıq və qabiliyyətləri*-**E.Ş.**) ilə onu yaşayış üçün daha rəngarəng və gözəl edir. Bu fikirlər

xeyli maraq doğurmuşdu və alim intellekti riskli fiziki inkişafı məhdud hesab edərək, yaradıcı və intellektual qabiliyyətləri önə çəkmişdir. O qeyd etmişdir ki, bunlar "məsələlərin həlli, yaxud bir neçə mədəniyyətdə dəyərli hesab edilən əmtəələrin istehsal bacarığı" kimidir (Qardner və Hate, 1989). O, zehni proseslərlə əlaqədar bioloji və mədəni problemlər haqqında fikrini irəli sürdü. Onun bu çıxışı nitq və riyazi bacarığa əsaslanan zəka haqqında ənənəvi görüşdən fərqlidir. Hovard Earl Qardner ilkin olaraq 7 intellektual qabiliyyəti qiymətləndirdi, bunaları mütləq hesab etdi. Birinci 2 intellekt məktəb üçün çox dəyərlidir; sonrakı 3 intellekt incəsənət üçün vacibdir və nəhayət, son iki intellekt "şəxsi intellektlər" adlanırdı. (*Gardner, Howard: İntelligence Reframed. Multiple intelligences for the 21st century, New York: Basic Books. 292 + x pages. 1999: 41-43*).

1. Linqvistik və ya dil-nitq intellekti yazılı və şifahi dilə son dərəcə həssas yanaşan və sözlərdən bacarıqla, ritorikcəsinə və ifadəli istifadə edənlərə şamildir. Belə intellekt sahibi olan adamlar yazmaqda, oxumaqda, hekayə danışmaqda, nitq söyləməkdə, öz fikrini ifadə etməkdə çox bacarıqlı olurlar və onlar dildən informasiyanı yadda saxlamaq üçün istifadə edirlər. Yazıçılar, şairlər və natiqlər bu zümrəyə mənsubdur.
2. Məntiqi-riyazi intellekt meyarları kəşfetmə, müqayisə analizi və məntiqi təfəkkür bacarıqlarını ehtiva edir. Bu növ intellektə malik olanlar müxtəlif məlumatları bir-birilə əlaqələndirmək üçün məntiq və rəqəm meyarlarına əsaslanırlar. Riyazi əməliyyatı məntiqə əsaslanaraq sürətlə yerinə yetirirlər. Onlar daha çox məntiqi və riyazi təfəkkür sahibləridir.
3. Musiqi intellekti ifaçılıq, kompozisiyaya meyillilik (*yaradıcı qabiliyyət*-**E.Ş.**) və musiqi nümunələrini təqdir edənlərə məxsusdur. Bu öz strukturuna görə daha çox linqvistik təfəkkürə yaxındır. Belə adamlar səslərə, musiqi tonlarına və musiqi meyarlarına əsaslanaraq düşünürlər.
4. Fiziki - bədənin kinetik hərəkətlərindən istifadə etməklə məsələləri həll etməyə meyilli olanlar öz intellektlərini bədən hərəkətləri vasitəsilə nəzarətə almaq, əşya və alətlərdən məharətlə istifadə etmək, məsələləri həll etmək üçün bədən üzvlərindən qismən, ya tam istifadə etmək, məlumatları təhlil edərək ötürmək üçün ixtiyarında olan fəza həcmindən düzgün istifadə etmək, göz-əl arasında uyğunluq və digər fiziki-psixi bacarıqlara malikdirlər.
5. Məkan intellekti daha çox geniş və qapalı əraziləri tanımaq kimi potensial bacarıqları ehtiva edir.
6. Şəxsiyyətlərarası (interpersonal) intellekt sahibləri başqalarının məqsəd, maraq və duyğularını bilmək və onlarla əlaqə yaratmağa meyilli olur və bu şəxslər adətən, təhsil işçiləri, dindarlar, siyasi liderlər və müşavirlər olurlar. Təşkilati işlərdə fəallığı ilə seçilən bu şəxslər başqalarına nüfuz etmək, təsir göstərmək bacarığına malik olurlar və konstruktiv mövqe tuturlar.
7. Şəxsiyyətdaxili (intrapersonal) zəka özünü dərketmə qabiliyyətini, duyğularını, qorxularını və maraqlarını dərketmə bacarıqlarını təmin edir. Belə adamlar öz daxili hissiyyatlarını, röyalarını, başqaları ilə əlaqələrini, öz güclü və çatışmayan cəhətlərini öyrənməyə çalışırlar. Bu zəkaya sahib olanların yaşayışları plan əsasında olur.

Piokastro, Qardner və digər tədqiqatçılar tərəfindən Darvin, Piaje, Eynştein, Freyd, Pikasso, Qandi və Can Stvart Mill kimi alim və ixtiraçıların həyatının tədqiqi göstərmişdir ki, onlar yaradıcılıq səviyyəsinə çatmazdan əvvəl uzun illər boyu öyrənməklə məşğul olmuşlar. Lazımi bacarığı kəsb etdikdən və kifayət qədər püxtələşdikdən sonra öz yaradıcılıqlarını-əksər hallarda vahid bir əsər şəklində deyil, bir-birilə əlaqədar əsərlər şəbəkəsi şəklində təqdim etmişlər.

Başlanğıcdan yaradıcılıq zirvəsinə aparan mərhələlər düz bir xətt üzərində deyil, enişli-yoxuşlu ilanvarı bir xətt üzərində yerləşir.

İnsanlar yeni bir əsər yaratmaq üçün tədqiqat sahəsinə aid olan qanun - qaydaları və prinsipləri mənimsəməli, sonra isə bəzi fikirlərlə razılaşmamalı və nəhayət, yeni fikirlər irəli sürməlidir (Sternberq, 1999). Onlar yeniliyi müsbət qarşılayırlar, özlərinə inanan, ambisionist, iqtidarda olmaq istəyən və makroçu adamlardırlar, ənənəyə nadir hallarda tabe olurlar. Yaradıcı adamlar qruplarının arasında da müəyyən fərqlər vardır. Yaradıcı sənətkarların həyəcan stabilliyi daha azdır. Yaradıcı adamlarda yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün lazım olan daxili maraq xarici maraqdan daha çox rol oynayır (Sternberq, 1999).

Beləliklə, şəxsiyyətin yaradıcı və innovativ olması onun intellektual səviyyəsi ilə əlaqəli olduğu kimi, onun müxtəlif fəlsəfi və psixoloji səviyyələrdə təhlil olunan ontoloji və aksioloji keyfiyyətləri, maddi-predmet fəaliyyəti ilə də üzvi surətdə əlaqə və vəhdət təşkil edir.

# QADINLARA QARŞI ZORAKILIĞA SON!

# STOP VIOLENCE AGAINST WOMEN!

"Xəzər Xəbər"in ötən nömrəsində (367, noyabr 2017) **Qadınlara qarşı zorakılığa son!** ümumdünya kampaniyasının Azərbaycanda təşkilatçısı - Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətinin (RİQC) sədri Şəhla İsmayılın kampaniyanın tərəfdaşı olan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məktubunu dərc etmişdik.

Məktubda göstərildiyi kimi, **Qadınlara qarşı zorakılığa son!** kampaniyası hər il bütün dünyada 25 noyabr (Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü) və 10 dekabr (Beynəlxalq İnsan Hüquqları Günü) tarixləri arasında qeyd olunur.

RİQC-in kampaniya ilə əlaqədar hazırladığı əyani vəsaitləri təqdim edirik.

*Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC) 2002-ci ildə qadınların imkanlarını gücləndirmək və bərabər iştirakını təmin etmək vasitəsilə Azərbaycanın inkişafına öz töhfəsini vermək məqsədilə birləşən bir qrup fəal qadınlar tərəfindən yaradılmışdır. Qeyri-hökumət, qeyri-siyasi və qeyri-kommersiya təşkilatı olan RİQC 2005-ci ildə Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.*

*Cinsiyyət, yaş, din və irq mənsubiyyətinə görə ayrı-seçkilik olduğu təqdirdə demokratiya, ədalət və inkişafın mümkünsüzlüyü konsepsiyası – RİQC-in missiyasının əsasını təşkil edir. RİQC hər növ ayrı-seçkilik və zorakılığa qarşı mübarizə aparır.*

*RİQC-in ümumi məqsəd və maraqlar ətrafında toplanan heyətinə təsisçilər, üzvlər, əməkdaşlar, fəallar və könüllülər daxildir.*

Letter of Shahla Ismayil, chairwoman of the "Women Society on Rational Development" (WSRD) and representative of **"Stop! Violence Against Women"** worldwide campaign in Azerbaijan, addressed to prof. Hamlet Isaxanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, was published in the last issue of "Khazar Review" (367, November 2017)

It is mentioned in the letter that **"Stop! Violence Against Women"** worldwide campaign is annualy celebrated in the world between the dates of November 25 and December 10 (International Human Rights Day).

We are presenting materials prepared by the WSRD related to the campaign.

*Women Society on Rational Development ( WSRD) was established in 2002 by a group of active women intending to contribute to development of Azerbaijan by enhancing opportunities for women and providing equal participation for them. WSRD, a non-governmental, apolitical and uncommercial organisation was registered by the Ministry of Justice in 2005. Foundation of the mission of WSRD is based on the conception of impossibility of democracy, justice, and development in the environment of discrimination of gender, age, religion and race. WSRD struggles against all types of discrimination and violence.*

*Staff of the WSRD is composed of founders, members, employees, activists, and volunteers binded together around the general aims and interests.*




- Kimdir günahkar?
- Özüm...

Bəzən atam-qardaşım "utanmasın" dedim. Bəzən anamın qərarlarımı dözməyəcəyindən qorxdum. Bəzən həyat yoldaşımın istəklərinə uyğun davranmalı oldum. Bəzən "qohum-qonşu nə deyər" düşündüm. "Söz-söhbət" olmasın deyə vəziyyətlə barışdım.

Heç özüm olmadım. Heç özümü seçmədim. Bədənimin sahibi özüm ola bilmədim. Özümə nə qədər hörmət qoydumsa, ətraf da mənimlə elə davrandı.

Əslində, ağıllı və bacarıqlı idim. Amma susduğum, mübarizə aparmadığım üçün həyatımın sahibi özüm ola bilmədim.

- Who is guilty?
- Myself ...

At times I didn't want my father and brother "to be ashamed of me". At times I was afraid that my mother wouldn't endure my decisions. At times I had to behave proper to my husband's desires. At times I thought of my relatives and neighbors' opinions. At times I resigned myself to avoid "rumors".

I have never been myself. I have never chosen myself. I have never been the owner of my body. And the people mirrored the respect that I showed to myself.

I was actually smart and capable. But because I preferred to remain silent and feeble, I failed to become the owner of my life.

RİQC WARD




- Kimdir günahkar?
- Ana...

Bir ana olaraq məni nə dinlədin, nə də anladın. "Sus, danışma!", "Bu, qız peşəsi deyil", "Kimə versək, ona da gedəcəksən!", "Bircə söz-söhbət olmasın" – deyərək həyatımı alt-üst etdiyindən xəbərdar deyildin.

Amma "yox" deyə bilməyi mənə öyrətmədin. Dəyərli olduğumu hiss etdirmədin. Təzyiq və zorakılıqla üzləşəndə mənimlə paylaşa bilmədim.

Ətrafdakıların düşündüklərini mənim xoşbəxtliyimdən daha önəmli bildin. Puç olmuş həyatımın səssiz şahidi oldun...

- Who is guilty?
- Mother ...

As a mother, you have never listened to me, nor demonstrated understanding. You were not aware of turning my life upside down by saying "Don't speak up!", "This is not a girl's profession", "You will get married to whomever we say!", "Let's avoid 'rumors' at all expenses".

But you didn't teach me how to say "No". You didn't make me feel valued. I couldn't share my feelings when I faced pressure and violence.

Public opinion was more important to you than my happiness. You became a silent witness of my collapsed life...

RİQC WARD




- Kimdir günahkar?
- Ata...

Dost ola bilmədik, aşa bilmədiyim sərhədlər qoydun və bunu hörmət olaraq gördün.

"Olmaz"larla başlayan hər cümlənin ruhumdakı qığılcımları hər gün bir az daha söndürdüyünün fərqində deyildin.

Məni evində qonaq kimi gördün, "qızımızı təhvil vermək" adına bütün həyatımı çərçivələrə saldın. Arzularımı, istəklərimi görməzdən gəldin – təhsilimi, işimi, yoldaşımı sən seçdin...

Əslində, arxamda dursaydın xoşbəxt, cəsarətli və uğurlu bir qadın ola bilərdim, amma sən bunu seçmədin...

- Who is guilty?
- Father ...

We couldn't become friends; you have set the boundaries that I couldn't cross, while for you it was a sign of respect.

You could not imagine how you killed the sparks in my soul by starting all your sentences with "you can't".

You treated me as a guest in your house, restricting me throughout my life just to be able to hand me over chastely. You neglected my dreams and wishes – you made choices about my education, work, husband...

If only you supported me, I could have become a happy, courageous, and successful woman, but you didn't choose that way...

RİQC WARD




- Kimdir günahkar?
- Həyat yoldaşı…

Təhsilimə, işimə, geyimimə, davranışıma qarışmaq haqqını özündə gördün, məni şəxsi malın sandın.

Gücün çatmayan hər şeyin heyfini məndən aldın - təhqir etdin, hesab verə bilmədiklərinin günahını da məndə gördün...

Sırf "oğul atası" olmaq hikkəsinə görə qızımızın doğulmasına mane oldun.

Son işdən sonra yorğun, qayğıya və mülayimliyə möhtac, mənimsə hər zaman ailə üzvlərinin qulluğunda hazır olmağımı istədin. Mənə kömək etməyi özünə ar bildin.

"Ər"lik budurmu?

- Who is guilty?
- Husband …

You reserved the right to interfere in my education, work, attire, and behavior; you perceived me as your personal belonging.

You took vengeance on me for everything you failed doing in this life – you insulted me and held accountable for even the things you couldn't provide me with.

You were stubborn enough to prevent the birth of our daughter just to become a "father of a son".

You felt tired and needed care after the work, but you always expected me to serve the family members. You found it shameful to be helping me.

Is it the meaning of being a "husband"?

RİQC WARD




- Kimdir günahkar?
- Qaynanalar…

"Gəlin-qaynana" çəkişməsi niyə nəsildən-nəslə ötürülür? Bu çəkişmə kişini sevdiyi iki qadın – anası və həyat yoldaşı – arasında seçim etmək məcburiyyətində qoymurmu?

Evlilikdə yaşanan problemlər zamanı oğulların nöqsanını, bütün günahları isə gəlinlərdə görmək ədalətlidirmi?

Gəlinlərinə əziyyət verən qaynanalar keçmişdə öz yaşadıqlarının qisasını almağa çalışırlar? Bir qadının faciəsində başqa qadının əli olmalıdırmı?

- Who is guilty?
- Mothers-in-law …

Why is "the contention between daughters-in-law and mothers-in-law" transferred from generation to generation? Doesn't this contention force a man to make a choice between the two women he loves – his mother and wife?

Isn't it just all about seeing the sons faultless and putting all the blame on daughters-in-law, if there are any problems in a marriage?

Do mothers-in-law, who distress their daughters-in-law, try to take revenge of what they experienced in the past by doing so? Should a woman be involved in another woman's tragedy?

RİQC WARD




- Kimdir günahkar?
- Kişilər…

Bir qadının görünüşü, davranışı, küçədə olmaq saatları ona qarşı olan qısnamalara, təzyiqlərə, mühakimələrə haqq qazandıra bilərmi? Şəhvət dolu baxışların, nalayiq sözlərin, əsassız ittihamların arxasında yalnız QADIN kimliyimi dayanır?

Kişilər üçün ailəli və uşaqlı qadın iş yerində nizamsız və məsuliyyətsiz kadr deməkdir?

Sükan arxasında oturan qadın kişiləri niyə bu qədər qıcıqlandırır?

Nəyə görə kişilər qadınların əldə etdiklərinin əlində mütləq bir kişi gücü axtararaq, karyera yüksəlişini və nailiyyətlərini var gücləri ilə əngəlləməyə çalışırlar?

- Who is guilty?
- Men …

Can a woman's appearance, behavior, and the hours she spends outside justify all the harassment, pressure, and judgments she is subjected to? Is it only a WOMAN's identity that stands behind the sensual looks, indecent comments, ungrounded accusations?

Do the men regard a woman with family and children as undisciplined and irresponsible one at a working place?

Why do female drivers cause so much irritation among men?

Why are men likely to prevent women's career growth and achievements by searching for a male power behind everything she has achieved?

RİQC WARD




**- Kimdir günahkar?**
**- Qadın alverçiləri...**

İnsan alveri ilə məşğul olanlar bu alverin qurbanı olan qadınlar qədər qınağa məruz qalırmı?

Qadın alverçilərinin yaxınları onların qadın bədənindən qazandıqları puldan imtina edirmi?

İnsan alveri qurbanı olduqdan sonra bunu bilənlər bizə necə yanaşır? Yardım əlini uzadırmı? Anlayış göstərirmi?

Bəs qadını satılmaqdan, zorakılıqdan, qınaqdan qurtarmaq üçün bir addım belə atmayanlar da bu faciənin ortağı deyilmi?

**- Who is guilty?**
**- Traffickers of women...**

Are the human traffickers subjected to as much criticism as survivors of this trafficking?

Do the traffickers' relatives refuse accepting the money earned through the appropriation of women's bodies?

How do the people treat us once they find out about our trafficking stories? Do they help us? Do they understand us?

Don't those, who ignore making a single step to rescue the women from trafficking, violence or public accusation, share the guilt of this tragedy?

RIQC WARD




**- Kimdir günahkar?**
**- Həkimlər...**

Həkimlər onlara müraciət edənlərə "xəstə" kimi yanaşırlar, yoxsa "müştəri"? İnsanları sağaltmağa, yoxsa yarımcan etməyə xidmət edirlər?

Edilmiş yanlış əməliyyatlar, yoluxdurulmuş xəstəliklər, səhlənkarlıq, özbaşınalıq, cəzasızlıq - səhiyyənin bizə verdiyi təminat budurmu?

Necə olur ki, Hippokrat andını içmiş bir həkim qazanc xatirinə ana bətnindəki körpəni cinsiyyətinə görə qətl edə bilir? Bəs bu, cinayət deyilmi?

**- Who is guilty?**
**- Doctors ...**

Do the doctors treat the people as "patients" or as "customers"? Do they aim at healing people or at disabling them?

Erroneous operations, transmitted diseases, negligence, arbitrariness and impunity – is it what the healthcare should provide us with?

How can a doctor that has taken the Hippocratic Oath kill a baby in mother's womb on the sex-selective ground for the sake of profit? Isn't it a crime?

RIQC WARD




**- Kimdir günahkar?**
**- Müəllimlər...**

Müəllimlər şagirdlərini həyata necə hazırlayırlar? Aldığımız təhsil bizə hüquq və azadlıqlarımızı müdafiə etməyi öyrədirmi?

Ailələrinin statusuna görə məktəbdə ayrı-seçkiliyə məruz qalan uşaqların sonrakı taleyi necə olur?

Şagirdlər müəllimlərinə sevgi haqqında sual verəndə müəllimlər mentaliteti, yoxsa insanlararası münasibətləri daha üstün tuturlar?

Cəmiyyətdə əzilən, döyülən, haqqı tapdalanan hər qadının faciəsinin altında bir müəllimin də imzası yoxdurmu?

**- Who is guilty?**
**- Teachers ...**

How do the teachers prepare their pupils to life? Does the education we receive teach us how to defend our rights and freedoms?

What happens to the children subjected to discrimination at school due to their parents' social status?

Do the teachers tend to prioritize mentality or human relations, when their pupils ask them about love?

Isn't there a teacher's signature underneath of every abused and oppressed woman's tragedy?

RIQC WARD




- Kimdir günahkar?
- Media...

İnsanlar hekayəmi mənim dilimdən deyil, sizin dilinizdən dinlədi.
Təcavüzə məruz qalarkən, öldürülərkən QADIN olduğum üçün qatilimi deyil, məni mühakimə etdiniz. "Üçün", "görə" ilə başlayan hər cümlədə yeni bir zorakılığa qapı açdı.

Ölümümü "Yüngül həyat tərzinə görə ata qızını öldürdü...", təcavüzə məruz qalmamı "Zorlanan qız evdən qaçıbmış..." başlıqları ilə dərc edəndə alçaldıcı dillə zorakılığa haqq qazandırdınız. Qurban olduğumu, İNSAN olduğumu görməzdən gəlib, "layiq olduğu cəzasını aldı" yazdınız. Reytinq üçün ölümümü belə şouya çevirməkdən çəkinmədiniz.
Hansı davranışım buna haqq qazandıra bilərdi?!

- Who is guilty?
- Media...

People learnt my story from you, not me.

While being raped and murdered, you did not accuse my murderer, but me because I am a WOMAN. By stressing the words "Because of", "for" in every news headline, you unleashed violence further on.

You justified the femicide and rape by publishing articles with derogatory headings such as "Women murdered by her father in honor killing" or "The young girl who had left her house was raped." You ignored me being a victim or just a HUMAN, and wrote that "I received the punishment I deserved". You did not hesitate to turn my death into a "Show" just for media ratings.

Which act of mine can justify this all?!

RİQC WARD




- Kimdir günahkar?
- Cəmiyyət...

"Niyə evə gec gəlirsən?", "Nə qədər maaş alırsan?", "Niyə ərə getmirsən?", "Niyə uşağın yoxdur?" - suallarını verənlərin davranışımızı sorğulamaq, qərarlarımıza qarışmaq, həyatımızı yönləndirmək haqqı varmı?

Nəyə görə cəmiyyət bizi öz formalaşdırdığı çərçivələrə həbs etməyə israrlıdır?

Gələcək övladımın cinsiyyətini seçmək qərarına qarışan, bədənimə dəyən zərbələrə səbəb olan, şahid olanda susan, öldürüldüyüm zaman görməzdən gələn, hətta məndə günah axtaran - içində SƏNİN də olduğun cəmiyyət deyilmi?

- Who is guilty?
- Society ...

Do the people, who ask questions such as "Why do you come home so late?", "How much do you earn?", "Why aren't you getting married?", "Why don't you have kids yet?", have a right to question our behavior, interfere in our decisions, direct our lives?

Why does the society insist on imprisoning us within the constraints it has developed?

Isn't this society, composed of the people like you, share the guilt for making decisions on my future child's sex, striking blows on my body, remaining silent and even accusing me when I get murdered?

RİQC WARD




- Kimdir günahkar?
- Qanunlar...

Ölkədə qanunvericilik mənim hüquqlarımı nə dərəcədə müdafiə edir? Bəs qanunların icrasına əməl olunurmu?

Ailədaxili zorakılığa məruz qaldıqda, valideynlərim belə məni qəbul etməyəndə, qanun məni qoruyurmu?

Hakimlər boşanma prosesimə ədalətli yanaşırmı? Təcavüz, zorakılıq və təzyiqdən müdafiə olunmaq üçün sığınacaq və mühafizə ilə təmin olunurammı?

Qatilim bitirilmiş həyatıma bədəl olacaq qədər cəzalandırılırmı?

- Who is guilty?
- Laws ...

To what extent does the legislation protect my rights? Are the laws being properly executed?

Does the law protect me when I become subjected to domestic violence and left without my parents' support?

Do the judges demonstrate impartiality when dealing with my divorce process? Am I provided with shelter and security to get protected from rape, violence and oppression?

Does my murderer get the punishment proportionate to my finished life?

RİQC WARD

# UŞAQLARIN CƏNNƏTİ

*(hekayə)*

**Nəcib Məhfuz**
Nobel mükafatı laureatı
1911-2006
*Misir Ərəb Respublikası*



- Ata...

- Nə olub?

- Rəfiqəm Nadya və mən həmişə birlikdəyik.

- Bu yaxşıdı, mənim balam.

- Dərsdə, tənəffüsdə, yeməkxanada...

- Əla. O, çox yaxşı və tərbiyəli qızdı.

- Amma "Allahın qanunları" dərsində biz ayrı-ayrı siniflərdə otururuq...

Ata toxumaqla məşğul olan anaya baxdı və onun gülümsədiyini gördü. Özü də gülümsəyərək dedi:

- Bu ki, ancaq "Allahın qanunları" dərsindədi.

- Niyə belə olur, ata?

- Çünki, sən ayrı imandasan, o ayrı.

- Necə?

- Sən müsəlmansan, o xristian.

- Niyə, ata?

- Sən hələ balacasan. Bunu böyüyəndə anlayacaqsan.

- Mən artıq böyüyəm.

- Yox, mənim balam. Sən hələ balacasan

- Mən niyə müsəlmanam?

Hə... Müasir tərbiyə üsullarından kənara çıxmamaq üçün səbr etməli və ehtiyatla danışmalısan.

- Sənin atan müsəlmandı, anan da. Sən də buna görə müsəlmansan.

-Bəs Nadya?

- Onun atası da, anası da xristiandı. Ona görə o da xristiandı.

- Ona görə ki, onun atası eynək taxır?

- Yox, eynəyin bura dəxli yoxdu. Sadəcə onun babası da xristian olub.

O, uzaq əcdadları sadalamağı və bu yolla qızını bezdirməyi, nəhayət qızın mövzunu dəyişəcəyini düşündü. Amma qız soruşdu:

- Bəs hansı yaxşıdı- müsəlman olmaq, yoxsa xristian?

Bir az düşünən ata cavab verdi:

- Hər ikisi yaxşıdı.

- Axı hansısa daha yaxşı olmalıdı.

- Hər iki din yaxşıdı.

- Bəlkə, Nadya ilə ayrılmamaq üçün mən də xristian olum?

- Yox, qızım. Bu mümkün deyil. Hər kəs öz valideynlərinin dinini qoruyub saxlamalıdı.

- Axı niyə?

...Həqiqətən də müasir tərbiyə asan iş deyil!

- Bəlkə sən bu sualları böyüyəndən sonra verəsən?

- Yox, ata.

- Yaxşı. Sən dəbin nə olduğunu bilirsən? Bax, birisi bir dəblə ayaqlaşır, digəri başqa dəblə. Müsəlman olmaq müasirlikdi, ən sonuncu dəbdi. Buna görə də sən müsəlman olaraq qalmalısan.

- Deməli Nadya köhnə dəblidi? Deyəsən, o, hardasa səhv edib. İndi necə etməli?

- Bu zövq məsələsidi. Amma hər kəs öz valideynlərinin dininə sitayiş etməlidi.

- Olar mən Nadyaya deyim ki, o köhnə dəblidi?

- Hər bir din yaxşıdı-ata tələsik əlavə etdi-müsəlmanlar da, xristianlar da eyni Allaha ibadət edir.

- Bəs niyə onlar fərqli otaqlarda ibadət edir?

- Çünki hər kəs öz bildiyi kimi ibadət edir.

- Necə yəni öz bildiyi kimi?

- Bunu gələn və ya ondan sonrakı il biləcəksən. Hələlik bu qədərini bil ki, müsəlmanlar da, xristianlar da Allaha etiqad edir.

- Bəs Allah kimdi?

Burda artıq ata özünü itirdi. Sakitliyini qorumağa çalışaraq soruşdu.

- Bəs məktəbdə müəllimə bu haqda nə deyir?

- O, Qurandan surə oxudu. Bizsə əzbərlədik. Amma mən heç nə anlamadım. Allah kimdi, ata?

- O, dünyadakı hər şeyin yaradıcısıdı.

- Hər şeyin?

- Hə, hər şeyin.

- Bəs yaradıcı nədir?

- Yəni hər şeyi O yaradıb.

- Necə yaradıb?

- Özünün əzəməti ilə.

- Bəs O harda yaşayır?

- Dünyanın hər yerində.

- Bəs dünya var olmayanda harda yaşayıb?

- Yuxarıda, göydə.

- Səmada?

- Hə.

- Mən onu görmək istəyirəm.

- Bu mümkün deyil.

- Hətta televizorda da?

- Hətta televizorda da.

- Onu heç kim görməyib?

- Heç kim.

- Bəs sən hardan bilirsən ki, O göydədi?

- Çünki bu belədir.

- Bəs Onun göylərdə olduğunu ilk dəfə kim bilib?

- Peyğəmbərlər.

- Peyğəmbərlər?

- Hə. Məsələn, Məhəmməd peyğəmbər.

- Bəs o, bunu hardan bilib?

- Özünün xüsusi gücü sayəsində.

- Onun gözləri çox yaxşı görürdü, hə?

- Hə.

- Niyə, ata?

- Çünki Allah onu belə yaradıb.

- Niyə axı?

Kişi qalan səbrini də itirərək cavab verdi:

- Çünki O, etmək istədiyi hər şeyi edə bilir.

- O necədir ki?

- Çox qüdrətli, çox güclü, hər şeyi bacaran.

- Sənin kimi. Hə, ata?

Gülməyini güclə saxladı.

- Onun tayı-bərabəri yoxdu.

- Bəs niyə göydə yaşayır?

- Çünki yer Onun üçün kiçikdir.

Qız bir az düşünüb dedi:

- Amma Nadya deyir ki, o yerdə yaşayıb.

- Çünki O, yerdə baş verən hər şeyi bilir.

- Nadya həm də deyir ki, Onu öldürüblər...

- Yox balaca. Onlar elə düşünürdü ki, Onu öldürüblər. Amma O sağdır, yaşayır.

- Onda babam da sağdı, hə?

- Yox, o həqiqətən ölüb.

- Niyə?

- Xəstə idi, ona görə.

- Bacım da xəstədi. O da öləcək?

O, arvadının qəzəbli baxışlarını öz üzərində hiss edərək alnını qırışdırdı.

- Yox, Allahın köməyi ilə o, sağalacaq.

- Bəs babam niyə öldü?

- O, xəstə və qoca idi.

- Sən də xəstələnmişdin və qocasan. Sən niyə ölmədin?

Ana qıza acıqlandı. Heç nə dərk etməyən qız bundan özünü itirdi. Tərəddüdlə gah anasına, gah atasına baxdı.

- Bizim ölümümüz Allahın ixtiyarındadır. O, nə zaman istəsə, onda da, öləcəyik. -nəhayət ata cavab verdi.

- Bəs O, niyə bizim ölümümüzü istəyir?

- Hər şey Onun hökmü ilə baş verir.

- Bəs ölüm yaxşıdı?

- Yox mənim balam.

- Bəs niyə Allah pislik edir?

- Pislik deyil. Əgər Allah lazım bilirsə, deməli insanlar ölməlidi.

- Axı özün dedin ki, ölüm pisdi?

- Mən səhv etdim, balaca.

- Bəs niyə sənə "öləcəksən" deyəndə anam acıqlandı?

- Çünku Allah hələ bunu istəmir. İstəmirsə, biz də bunu dilə gətirməməliyik.

- Bəs nə vaxt istəyəcək?

- O bizi bu dünyaya göndərir, lazımi vaxtda isə burdan aparır.

- Niyə?

- Bizim bu dünyadan gedənə qədər yaxşılıq edə bilməyimiz üçün.

- Bəs niyə burda qala bilmərik?

- Əgər insanlar dünyanı tərk etməsələr, başqa insanlara yaşamaq üçün yer çatmaz.

- Bütün yaxşı şeylər bu dünyada qalacaq?

- Biz daha yaxşı şeylərin olduğu daha yaxşı yerə gedəcəyik.

- Hara?

- Yuxarı, göylərə.

- Allahın yanına?

- Hə.

- Onu görəcəyik?

- Hə.

- Bu yaxşıdı?

- Əlbəttə.

- Elə buna görə də biz getməliyik, hə?

- Amma hələ biz edə biləcəyimiz qədər yaxşılıq etməmişik.

- Bəs babam etmişdi?

- Hə.

- O, nə etmişdi?

- Ev tikmiş, bağ salmışdı.

- Bəs əmim oğlu Tutu nə etmişdi?

Ata ümidsiz baxışlarını anaya tərəf çevirərək yardım istədi. Sonra isə dedi:

- Getməzdən əvvəl o da balaca bir evcik tikmişdi.

- Bəs qonşumuzun oğlu Lulu? Məni döyür, heç bir yaxşılıq etmir.

- O, dəcəldi.

- O da öləcək?

- Allahın istəyi olduğu zaman öləcək.

- Amma o, heç bir yaxşılıq etməyib.

- Hamı ölür. Kim yaxşılıq edibsə, Allahın yanına gedir, pislik edənlər tonqalda yanır.

O, köksünü ötürdü, bir qədər susdu. Ata isə özünü tamamilə üzgün hiss edirdi. Görəsən o, qızının suallarını düzgün cavablandırırdı? Bu zaman qız yenidən dilləndi:

- Mən həmişə Nadya ilə bir yerdə olmaq istəyirəm.

Onun təəccüblə baxdığını görüb izah etdi:

- Hətta "Allahın qanunları" dərsində də.

O, bərkdən qəhqəhə çəkdi. Ana da güldü.

- Heç vaxt ağlıma gəlməzdi ki uşaqlarla bu cür mövzuları müzakirə etmək olar.

Arvadı cavabında:

- Qızımız böyüdükdə, sən ona bütün şübhələrini deyə bilərsən.

O, cəld arvadına tərəf çevrilib bunu ciddi, yoxsa zarafatla dediyini anlamağa çalışdı. Lakin, qadın yenidən toxumaqla məşğul idi.

*Rus dilindən tərcümə:*
**Xatirə Nurgül**







# WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS




'The worlds largest indoor theme park is just the beginning of a complex that seems as big as Seoul itself. An outdoor amusement park, a folk museum, theaters, malls, an aquarium, and other venues round it out, along with—of course—plenty of karaoke machines.




# VATİKAN KİTABXANASI

Vatikan kitabxanası Orta əsrlər və İntibah dövrünə aid əlyazmalarının toplandığı ən zəngin kitabxanadır. Kitabxananın əsası XV əsrdə papa IV Siqst tərəfindən qoyulub. Hazırda kitabxananın fondunda 1 600 000 çap kitabı, 150 000 əlyazması, 8 300 inkunabula (Avropada kitab çapı başlayandan 1501-ci ilin 1 yanvarınadək çao olunmuş kitablar belə adlanır. Həmin vaxt kitabların tirajı 100-300 nüsxə olurdu; latınca "incunabula" sözündəndir: beşik, başlanğıc), 100 000-dən çoxqrqvür və coğrafi xəritə, 300 000 pul vahidi və medal vardır. Kitabxananın fondu mütəmadi zənginləşir.

Kitabxanada Vatikan Kitabxanaçılar Məktəbi və əlyazmalarının bərpası laboratoriyası fəaliyyət göstərir.





# AZƏRBAYCANIN GÖRKƏMLİ FİLOSOF ALİMİ CAMAL MUSTAFAYEV VƏFAT ETMİŞDİR

Azərbaycanın görkəmli filosof alimi, fəlsəfə elmləri doktoru, əməkdar elm xadimi, Xəzər Universiteti Tərcümə-Araşdırmalar Mərkəzinin direktoru, "Xəzər Xəbər" jurnalı redaksiya heyətinin üzvü, professor Camal Vəli oğlu Mustafayev 2017-ci il dekabrın 2-dən 3-nə keçən gecə 89 yaşında fəvat etmişdir.

Camal Mustafayev 1928-ci ildə Gürcüstanın Qarayazı rayonunun (indiki Qardabani) Kosalı kəndində anadan olmuşdur. Orta təhsilini 1935-1944-cü illərdə Kosalı kənd orta məktəbində almışdır. Sonra Tbilisidə ikiillik Müəllimlər İnstitutunda oxumuşur. 1946-1948-ci illərdə Kosalı kəndində müəllim işləyib.

1948-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti-BDU) fəlsəfə şöbəsinə daxil olub. 1949-cu ildə Moskva Dövlət Universitetinə keçirilib və oranı 1952-ci ildə bitirib. İki il Qarayazı rayonunda məktəb direktoru işləyib.

1954-1957-ci illərdə SSRİ EA Fəlsəfə İnstitutunun əyani aspirantı olub. Aspirantura illərində onun elmi araşdırmaları "Nizaminin fəlsəfi və etik görüşləri" mövzusu ətrafında olmuşdur. O, bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir.

1957-1968-ci illərdə Camal Mustafayev Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, elmi işçi və baş elmi işçi vəzifələrində işləmişdir.

1968-ci ildə o, Azərbaycan Dövlət Universitetinin müdafiə şurasında "Nizaminin ideyalar aləmi və müasirlik" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək, fəlsəfə elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

1968-1976-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda (indiki Azərbaycan Dillər Universiteti) fəlsəfə kafedrasının müdiri işləmişdir.

1976-cı ildən 1999-cu ilədək Azərbaycan Dövlət Universiteti və BDU-nun professoru olmuşdur. 1985-1991-ci illərdə universitetdə etika-estetika kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Professor Camal Mustafayev 1999-cu ildən Xəzər Universiteti Tərcümə-Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində işləmişdir.

Camal Mustafayev orta əsrlər Azərbaycan fəlsəfi fikri sahəsində bir sıra sanballı əsərlər çap etdirmişdir. Xüsusən, onun Nizami fəlsəfəsinə, XII əsr Azərbaycan düşüncəsinə aid əsərləri geniş oxucu kütləsinə bəllidir. Moskva və başqa şəhərlərin nüfuzlu jurnallarında əsərləri çap olunmuşdur. Onun Müsəlman şərq sosial utopiyasına aid tədqiqat işləri və s. əsərləri xarici dillərə tərcümə olunmuşdur. O, eyni zamanda, müasir Azərbaycan şeirinin də tədqiqatçılarından idi.

Camal Mustafayevin elmi və pedaqoji fəaliyyəti 70-dən çox elmi və publisistik məqalə və müsahibələrdə, 2 monoqrafiyada öz əksini tapmışdır. O, çoxsaylı ölkə və beynəlxalq səviyyəli konqres, simpozium və konfransların iştirakçısı olmuş, məruzələr etmişdir.

Camal Mustafayev Azərbaycan fəlsəfəsi, etika və estetikası sahəsində bir sıra elmlər namizədi, elmlər doktoru yetişdirmişdir. O, BDU-nun, Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun müdafiə şuralarının, Xəzər Universiteti Elmi-inzibati Şurasının üzvü olmuşdur.

Görkəmli alim, səmimi və qayğıkeş insan Camal Mustafayevin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Xəzər Universitetinin kollektivi**

# ÖMÜR VƏFASIZ İMİŞ... GÖR KİMLƏRİ APARIR...

Azərbaycan elmində və təhsilində ağır itki... Fəlsəfənin qoca çınarı devrildi - filosof Camal Mustafayev dəyişdi dünyasını... Azərbaycan xalqı dəyərli bir milli-intellektual sərvətini, çox önəmli bir düşüncə sahibini itirdi...

İnsanlığın böyük mücəssəməsi, Borçalının gur səsi Camal Mustafayev əbədiyyətə qovuşdu... Heç bir ehtiyac yoxdur onun böyüklüyündən danışmağa. Həyatı boyunca ona olan sevgi, hörmət professor Camal Mustafayevin böyüklüyünü açıq bir biçimdə göstərir.

Budaqları göyə dirək, gövdəsi qalın bir çinar idi O. İllər keçdi, iqlimlər bir-birini əvəz etdi. Soyuq yellər əsdi, yarpaqlarını budağından tökdü, bəzən də qırdı qol-budağını bu yellər onun... Ömrünün neçə illəri ələndi ətəyində ayların, illərin onun... Pislik etmədi kimsəyə, daş atmadı duru suların gözünə həyatı boyu, yaxşılığı toxudu sevgiyüklü qəlbinə bu təmiz, tərtəmiz insan...

Comərdcə oldu, duruşunu dəyişmədi, çox illərə sinə gərdi bu əsrlik çinar!!! Budaqları altına sığınanların, qışın soyuğundan, yazın yağışından, yayın istisindən, payızın küləyindən qaçanların üstünə gərdi qol-qanadını, əllərindən tutdu yetim-yesirlərin, kimsəsizlərin...

Qürur duyurdu, fəxr edirdi haqqını arayan, vətənini və xalqını sevən savadlı gənclərlə, gələcəyin aydınlarını - tələbələrini əstarəngiz bir dünya ilə qovuşdururdu, ürəyinin odunu verirdi onlara, yeri gəldiyində maaşını da bölürdü imkansız tələbələriylə Camal müəllim! Xoşbəxtlik dolu bir dünya istəyirdi bu gənclərçün... Sevgi və mərhəmətlə dopdolu, ipisti ürəyi var idi onun...Neçə-neçə insanların dərdinə dərman, ağrılarına əlac oldu...

Yoğruldu, qovruldu acı günlər içində, dumanlı günlər yaşadı, sınıq-sınıq oldu şipşirin arzuları bəzən... Gördü bu dünyanın hər üzünü. Ancaq Haqqın yolunda dürüst oldu, həzm edənmədi yamanlığı, ikiüzlülüyü, əliəyriliyi, saxtakarlığı... İtirmədi qürurunu ən çətin anında belə. Bilirdi haqlı olduğunu, inanırdı tutduğu səmtin doğruluğuna. Palıdtək möhkəm, zəhmli və üstün mədəniyyət sahibi bu köhnə kişi düz baxdı həqiqətin, gerçəyin gözünə. Qatmadı halalına haram heç vaxt - mayası halallıqla yoğrulduğu üçün...

Aldanmadı bu dünyanın işıltısına O. Dünya malında yox idi gözü, tamah damarı olmadan gəldi bu dünyaya bu böyük şəxsiyyət. Sözün əsl mənasında kişilik, ziyalılıq, əqidəlilik, vicdanlılıq, xeyirxahlıq nümunəsi idi O!!! Saflıq, müdriklik, yüksək mənəviyyat etalonu idi O!!! Qürur qaynağımız, fəxrimiz, güvənc yerimiz, dədəmiz idi O!!! Yurdunun işığını yandıran qarapapaqlarımızdan biri idi O!!! Azərbaycan xalqının ləyaqətli oğlu idi O!!!

Milyonların ruhuna hopan, yaddaşına pərçimlənən bu əsrlik çinar adını şərəflə yazdı tarixə - təmiz vicdanıyla, yalansız dünyasıyla, insani biçimiylə, savadıyla, müdrik kəlamlarıyla...

Gələn gedir, qalan yoxdur bu dünyada... Bəzən uşaq kimi kövrək, bəzən çaylar kimi coşqun, bəzən də qaya kimi sərt filosof Camal artıq yoxdur aramızda. İstəsək də belədir, istəməsək də...

Nur kimi göylərdən gələn bu kişi mələk kimi uçdu göylərə... Allah sənə rəhmət eləsin, Dədə Camal! Yerin behişt, ruhun şad olsun, böyük ustad! İllər keçsə belə, zaman-zaman anılacaq rəng-rəng xatirələrin sənin... Silinməyəcək sevgin ürəklərdən, adın isə yaddaşlardan! Çünki sən unudulmazlar arasındasan...

**Elza İsmayılova,**
*Xəzər Universitetinin müəllimi*

ELAN • ELAN •

# 2018/2019 - CU TƏDRİS İLİ ÜÇÜN ƏCNƏBİLƏRİN QƏBULU AÇIQ ELAN OLUNUR

Xəzər Universiteti 2018/2019-cu tədris ilində əcnəbi vətəndaşlar üçün qəbulun başlanmasını və Beynəlxalq Təqaüd Proqramını elan edir. Tədris proqramları dörd (4) fakültədə bakalavriatura, magistratura və doktorantura səviyyələrində təklif olunur.

Təqaüd proqramı dünyanın bütün ölkələrindən olan tələbələr üçün açıqdır və hər ölkəyə tam təhsil haqqını ödəyən iki təqaüd imkanı ayırır.

Son müraciət tarixi: 15 aprel 2018-ci il, saat 17:00 (Bakı vaxtı ilə).

Bu link vasitəsilə müraciət etmək olar:

*http://www.khazar.org/az/menus/496/how_to_apply_sup_style_color_red_new_sup_.*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi Təhsil fakültəsinin dekan müavini Aygün Verdiyevaya anası

**Sevda Verdiyevanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədova anası

**Xədicə Məmmədovanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin həkimi Leyla Cəmilzadəyə anası

**Qalina Kərimovanın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# XƏZƏR UNİVERSİTETİNİN DÜNYA MƏKTƏBİ

## BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

**Ünvan:**

**Bakı, Əcəmi Naxçıvani 9**
**Tel.: (+994 12) 563 59 40 /47 /48**
**Mob.: (+994 70) 844 08 88**

**Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi**
**Tel.: (+994 18) 642 30 97**
**Mob.: (+994 55) 669 96 33**

**E-mail: info@dunyaschool.az**
**http: // dunyaschool.az**

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn